Azercell

# Dayanıqlılıq Hesabatı

2023

# Mündəricat


Qısaltmaların siyahısı.... 3
Azercell prezidentinin müraciəti.... 4
Azercell haqqında.... 8
Qısa faktlar.... 8
Haqqımızda.... 9
Mükafatlar və Standartlar.... 12
Bu Hesabat haqqında.... 14
Dayanıqlılıqla bağlı istəklərimiz.... 15
İdarəetmə və Dayanıqlılıq.... 15
İnnovasiya və Dayanıqlılıq.... 15
Strategiya və Əsas fəaliyyət istiqamətləri.... 17
Dayanıqlılıq yanaşmamız.... 19
Maraqlı tərəflərin iştirakçılığı.... 19
Dayanıqlılığın əhəmiyyətliliyinin qiymətləndirilməsi.... 20
Ətraf mühit.... 24
Strategiya və Yanaşma.... 25
İdarəetmə.... 25
Ekoloji risklərin idarə edilməsi.... 28
“Karbon ayaq izi”nin azaldılması istiqamətində addımlarımız.... 29
Tullantıların idarə edilməsi.... 30
Təkrar emal edilmiş batareyalar.... 31
Su resurslarının idarə edilməsi.... 31
İnnovativ texnologiyalar və Məlumatların saxlanması.... 32
Sosial.... 34
Əməkdaşlarımız.... 35
Fəal dinləmə: Əməkdaşların iştirakçılığı.... 36
İnsanlara sərmayə: İxtisaslı kadr strategiyamız. 38
Müxtəliflik, Ədalət və İnklüzivliyin müdafiəsi.... 40
Rifahın təmin edilməsi.... 43
Azercell-in vahid icması: Korporativ Sosial Məsuliyyət.... 44
KSM məqsədlərimizə çatılması.... 46
İdarəetmə.... 52
Korporativ idarəetmə.... 52
Direktorlar Şurası.... 52
Şirkət rəhbərliyi.... 53
Dayanıqlılığın idarə edilməsi.... 55
Etika və Komplayens.... 55
Risklərin idarə edilməsi.... 58
Kibertəhlükəsizlik və Məlumatların məxfiliyi.... 59
İnformasiya Təhlükəsizliyi İdarəetmə Sistemi (İTİS).... 59
Kommunikasiya və Daxili İştirakçılıq.... 60
Üçüncü şəxslərin iştirakçılığı.... 60
Təchizat zənciri üzrə məsuliyyət.... 61
Təchizatçının ABC öhdəliyi və Auditi.... 62
İrəliyə baxış.... 64
Əlavə.... 66
Ətraf mühit.... 66
Sosial.... 68
Məşğulluq, Təlim və İnkişaf, Müxtəliflik və İnklüzivlik.... 68
Əməyin mühafizəsi və təhlükəsizliyi.... 71
İcma.... 72
İdarəetmə.... 73
Məlumat və Biznes Etikası.... 73
Satınalma.... 76
Əməliyyat.... 78

# Qısaltmaların siyahısı

| | |
|---|---|
| **ACF** | Azərbaycan Cüdo Federasiyası |
| **CEO** | Prezident |
| **CIDC** | Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi |
| **MDB** | Müstəqil Dövlətlər Birliyi |
| **KSM** | Korporativ Sosial Məsuliyyət |
| **MBİ** | Müxtəliflik, Bərabərlik və İnklüzivlik |
| **ESG** | Ətraf mühit, sosial və idarəetmə |
| **Mİ** | Maliyyə ili |
| **İQ** | İstixana qazı |
| **HCM** | İnsan kapitalının idarə edilməsi |
| **İR** | İnsan Resursları |
| **SƏTƏM** | Sağlamlıq, Əməyin təhlükəsizliyi və Ətraf mühit |
| **İKT** | İnformasiya və kommunikasiya texnologiyaları |
| **İEC** | Beynəlxalq Elektrotexniki Komissiya |
| **ISO** | Beynəlxalq Standartlaşdırma Təşkilatı |
| **İT** | İnformasiya texnologiyaları |
| **VM** | Vacib mövzu |
| **NFT** | Dəyişdirilməyən kriptoqrafik tokenlər |
| **PR** | İctimaiyyətlə əlaqələr |
| **SCM** | Təchizat Zəncirinin İdarə Edilməsi |
| **SAP** | Sistemlər, Tətbiqlər və Məhsullar |
| **STEM** | Elm, Texnologiya, Mühəndislik və Riyaziyyat |
| **BMT DİM-ləri** | Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri |
| **YUNİSEF** | Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu |

# Azercell prezidentinin müraciəti




## Zərinə Zeynalova

“Azercell Telekom” MMC-nin prezidenti

Hörmətli Maraqlı tərəf,

Şəffaflıq, məsuliyyət və dayanıqlı gələcəyə doğru çıxdığımız yola sadiqliyimizin sübutu olan Azercell-in İllik Dayanıqlılıq Hesabatını təqdim edərkən Sizi səmimi qəlbdən salamlamaqdan məmnuniyyət hissi duyuram.

Bir çox sahələrdə sürətli irəliləyişlərin şahidi olduğumuz əlamətdar dəyişikliklər dövrünü yaşayırıq. Texnoloji tərəqqi amansız bir sürətlə irəliləyir və rəqəmsal texnologiya həyatımız, iqtisadiyyatımız və cəmiyyətimizin bütün sahələrinə inteqrasiya olunur. Süni intellekt, Maşın öyrənməsi, Metaverse, web3 və xüsusilə telekommunikasiya şəbəkələri yeni reallığımızın ayrılmaz komponentlərinə çevrildikcə, bu nailiyyətlərin hər yerdə mövcudluğu göz qabağındadır.

Davamlı olaraq inkişaf edən bu dünyanın çətinlikləri arasında dolaşdıqca dayanıqlılıq və davamlılığın seçim deyil, zərurət olduğu getdikcə daha aydın olur.

Azərbaycan əhalisinin demək olar ki, yarısına xidmət göstərən aparıcı mobil operator olaraq, ölkənin ən böyük telekommunikasiya xidmətləri təminatçılarından biri kimi məsuliyyətimizi tam dərk edirik. Azercell-də dayanıqlı və davamlı biznesin aparılması milyonlarla abunəçi üçün problemsiz bağlantını və ölkədəki bir çox strateji funksiyaların fasiləsiz işləməsini təmin etmək üçün çox vacibdir. Buna görə də, dayanıqlılıq Azercell strategiyasının özəyini təşkil edir: tendensiyaları müəyyən etmək və dayanıqlılıq sahəsində qabaqcıl təcrübələri həyata keçirmək bizim üçün arzuolunan seçim deyil, fundamental biznes zərurətidir.

Dayanıqlı uğur qazanmağa çalışdığımız üçün, 2022-2024-cü illər üçün müəyyən etdiyimiz 4 strateji istiqamət ətrafında strukturlaşdırılmış ESG strategiyamız konkret Dayanıqlı İnkişaf Məqsədləri (DİM-lər) ilə qüsursuz şəkildə uzlaşır. Hesabatımızda “ekoloji ayaq izi”mizi azaltmaq, icmalarımızı dəstəkləmək və dəyərlərimiz çərçivəsində etik davranış təcrübələrini təmin etmək üçün atdığımız addımlar təsvir edilir.

## Azərbaycanın aparıcı telekommunikasiya şirkəti

Telekommunikasiya sahəsində etibarlı lider olmaq üçün tədqiqat və inkişafa investisiya yatırmaqla DİM 9-a (Sənaye, innovasiya və infrastruktur) töhfə veririk. Bu investisiyalar innovasiyalar üçün zəmin yaradır, yeni məhsul və xidmətlərin inkişafını təşviq edir və maraqlı tərəflərimiz üçün davamlı dəyər yaratmaqla dayanıqlı biznes təcrübələrinin tətbiqini təmin edir. Bundan əlavə, DİM 7 (Sərfəli və təmiz enerji) öhdəliyimiz enerjiyə qənaət edən texnologiyaların təşviqi, şəbəkə işinin səmərəliliyinin optimallaşdırılması və bərpa olunan enerji mənbələrinə investisiya yatırma səylərimizdə özünü göstərir.

## Telekommunikasiyanın inkişafı

DİM 11-in (Dayanıqlı şəhərlər və icmalar) əsasını təşkil edən bu istiqamət Azercell-i “ağıllı şəhər”lərin inkişafında ön sıralara çıxarır. 5G əhatə dairəsi, “ağıllı maliyyə” və elektron səhiyyə kimi xidmətlər vasitəsilə müştərilərə fasiləsiz xidmət göstərmək və “ağıllı şəhər” infrastrukturuna töhfə vermək hədəfimiz dayanıqlı və texnoloji cəhətdən inkişaf etmiş icmalar yaradılmasına sadiqliyimizi nümayiş etdirir.

## İmkanların genişləndirilməsi və İnklüzivlik

DİM 5 (Gender bərabərliyi) ilə uzlaşdırılmış bu yanaşma rəqəmsal inklüziv cəmiyyət öhdəliyimizi təcəssüm etdirir. Biz yorulmadan çalışırıq ki, cəmiyyətin bütün təbəqələri Azercell-in təkliflərindən yararlansınlar. Zəif xidmət göstərilən icmalar üçün kommunikasiyaya daha yaxşı çıxış təmin edən və xüsusilə qadınlar arasında rəqəmsal savadlılığı təşviq edən layihələr həyata keçirməklə, daha inklüziv və ədalətli bir dünyaya töhfə verməyə çalışırıq.



## Əməkdaşlarımız və ixtisaslı kadrlarımız

DİM 3-ə (Yaxşı sağlamlıq və rifah) nail olmaq üçün əməkdaşlarımız strategiyamızda mərkəzi yer tutur. Əməkdaşlarımızı işimizin təməli kimi tanıyaraq, yüksək səviyyədə iş məmnuniyyəti ilə sağlam və ədalətli bir iş mühiti yaratmağa çalışırıq. Xüsusi diqqət yetirdiyimiz sahələrə işə qəbul, ixtisaslı kadrların inkişafı və saxlanması, əməkdaşların bərabərlik, müxtəliflik və inklüzivliyi, şirkət daxilində əməyin mühafizəsi və təhlükəsizliyi daxildir. Onların hər biri müəyyən edilmiş məqsəd və hədəflərə malikdir və dəyərli komandamızın rifahı və peşəkar inkişafına sadiqliyimizi gücləndirir.

İrəli getdikcə, cəmiyyət, ətraf mühit və maraqlı tərəflərimiz üzərində müsbət, uzunmüddətli təsir yaratmaq üçün ölkənin aparıcı telekommunikasiya operatoru olaraq imkanlarımızdan istifadə etməklə dayanıqlılıq öhdəliyimizə sadiq qalırıq.

Azercell-in dayanıqlılıq yolunda bizimlə olduğunuz üçün Sizə təşəkkür edirik. Birlikdə təşkilatımızın hüdudlarından çox kənarda əks-səda doğuracaq yeniliklər yaratmağa, ilham verməyə və müsbət təsir göstərməyə davam edəcəyik.

# Biz kimik
# və nə edirik

# Azercell haqqında

## Qısa faktlar

**1996**
Təsis tarixi

**94.6%**
Coğrafi əhatə dairəsi

**98.4%**
Əhalinin əhatəsi olunması

**48.2%**
Bazar payı

**5< mln**
Müştərilər

**#1**
Coğrafi xüsusiyyətləri, əhalinin əhatə olunması və bazar payına görə

**Bakı**
Bakı, Azərbaycanda baş ofisi açıldı

**İlk 5G**
Ölkədə ilk 5G şəbəkəsini istifadəyə verdi

**İstəSən**
İlk fərdiləşdirilə bilən rəqəmsal tarif planını istifadəyə verdi

**akart**
Azercell Finteki təqdim etdi

**60**
Azərbaycan üzrə rayonlar

**915**
İşçilər

**~570 mln**
2023-cü ildə gəlir (AZN ilə)

# Haqqımızda

1996-cı ildə təsis edilən Azercell şirkəti Azərbaycanda həmişə telekommunikasiya innovasiyalarının ön sıralarında olub. Təsis edildiyimiz gündən bizim məqsədimiz regionumuzda ən qabaqcıl rabitə şəbəkələrindən birini yaratmaq olmuşdur. İşimizlə ölkə əhalisinin informasiya, əyləncə və təhsilə asanlıqla çıxışını təmin etməyə çalışırıq.

Həmişə cəmiyyətə fayda gətirəcək qərarlar verməyə çalışsaq da, bir şirkət olaraq dayanıqlılığın bütün əməliyyatlarımıza formal inteqrasiyası yoluna qədəm qoyuruq. Bu öhdəliyin sübutu olaraq, biz yaratdığımız sosial, ətraf mühit və iqtisadi təsir üçün məqsəd və hədəflərimizi sistemləşdirən ilk Dayanıqlılıq Strategiyamızı hazırlamışıq. Dayanıqlılıq sahəsində yeni təşəbbüslərin həyata keçirilməsinə başlamaqla, biz abunəçilərimizə sonsuz imkanlar açan texnoloji gələcəkdən yararlanmaq üçün imkan yaratmağa çalışacağıq.

## Məqsədimiz

Korporativ strategiyamıza daxil olan məqsədimiz bağlantını asanlaşdırmaq və bütün Azərbaycan üzrə bütün insanların həyat imkanlarını genişləndirməkdir. Güvən yaratmaq və hərəkətlərimizə görə məsuliyyət götürmək istəyirik. Sözümüzü tutmağa çalışırıq və ən yüksək etik standartlara riayət edirik.



# Azercell-in dəyərləri

## Biz güvən yaradırıq

Həm ictimai, həm də şəxsi həyatımızda hərəkətlərimizə görə məsuliyyət daşıyırıq; ən yüksək etik standartlara riayət etməklə öhdəliklərimizə uyğun hərəkət edirik.

## Biz gələcəyə baxırıq

Biz çətinliklərlə üzləşməyə hazırıq və həmişə insanların bir-biri ilə və ətrafımızdakı dünya ilə qarşılıqlı bağlantısını yaxşılaşdırmaq üçün cəsarətli yeni yollar axtarırıq.



## Biz birlikdə daha yaxşı işləyirik

Biz Azercell-in vahid icmasıyıq və daxili və xarici müştərilər üçün fasiləsiz və üstün xidmət göstərmək üçün birlikdə çalışırıq.

## Biz müştərilərimizin qayğısına qalırıq

Biz müştərilərimizin ehtiyaclarına uyğun hazırlanmış və istifadəsi asan məhsul, xidmət və proseslər təklif edirik.

## Azercell-in korporativ strategiyasının 4 komponenti

Şirkət olaraq, həm yüksək səviyyəli qərar qəbulu prosesini, həm də gündəlik fəaliyyətləri idarə edən kimliyimizin təməlində dayanan dəyərlərimizə sadiqik. Bu dəyərlər və məqsədimiz fəaliyyətimizin vizyonumuza uyğun olmasını təmin etməyə imkan verən korporativ strategiyamıza daxil edilmişdir. 2022-ci ildə hazırlanaraq təsdiqlənmiş bu strategiyada Şəkil 3-də göstərilən 4 əsas komponent təsvir edilir.

### Azərbaycanda aparıcı telekommunikasiya şirkəti olmağa davam etmək

Müştərini fəaliyyətimizin mərkəzinə qoymaqla etimad qazanır və dayanıqlı təkmilləşməni təmin edirik. Müştərilərə daha qabaqcıl xidmətlər və geniş çeşidli innovativ məhsullar təklif etməyi hədəfləyirik.

### Həyat imkanlarını genişləndirən innovasiyaları təşviq etmək

Rəqəmsal texnologiyaların daha geniş tətbiqi ilə "ağıllı" xidmətlərin tam spektrinin üstünlük verilən təminatçısı olmaq.

### Azərbaycanda ən arzuolunan iş yerlərindən birinə çevrilmək

Fəaliyyət səmərəliliyi və yenilik təmin edəcək bir mühitin yaradılması. Biz mükəmməlliyə və davamlı inkişafa can atan istedadlı və məqsədyönlü insan kapitalını cəlb edir və inkişaf etdiririk.

### Dəyər yaratmaqla sənayenin gələcək inkişafını sürətləndirmək

Müştərilərimizin sadə həllər və fasiləsiz bağlantı ilə təmin edilməsi. Abunəçilərə sonsuz imkanlar açan texnoloji gələcək yaratmağa çalışırıq.

# Mükafatlar və Standartlar

Fəaliyyətimizin ilk günündən biz həmişə yerli bazarda təkcə iqtisadi göstəricilərimizə görə deyil, həm də gördüyümüz işlərin ümumilikdə keyfiyyətinə görə ön sıralarda olmağa çalışmışıq. Biz inanırıq ki, əməkdaşlarımıza son istifadəçilərimizə ən yüksək standartlı xidmətlər təklif etmək imkanı vermək üçün, ilk növbədə, daxili fəaliyyətimizin qüsursuz olmasını təmin etmək çox vacibdir. Bu öhdəliyin sübutu olaraq, biz bu illər ərzində davamlı təkmilləşdirmə və inkişafa sadiqliyimizi dəstəkləyən bir sıra mükafatlar və sertifikatlar almışıq.

**2018**

İnsan Kapitalı standartı olan “Investors in People” (IIP) - İnsana Sərmayə Standartı üzrə Qızıl Sertifikat alıb.

**2019**

Azercell “Stevie” Beynəlxalq Biznes Mükafatlarında “İlin telekommunikasiya şirkəti” seçilib. Həmçinin “People’s Choice Award” mükafatını “İlin ən yaxşı mobil operatoru” nominasiyasında qazanıb.

**2020**

Azercell “Stevie” Beynəlxalq Biznes Azercell “Stevie” Beynəlxalq Biznes Mükafatlarında “İlin telekommunikasiya şirkəti” seçilib və nüfuzlu Qızıl sertifikata layiq görülüb.

**2021**

İnsan Kapitalı standartı olan “Investors in People” (IIP) - İnsana Sərmayə Standartı üzrə Platin Sertifikat alıb.

Müstəqil Dövlətlər Birliyində buna ilk layiq görülən şirkət Azercell olmuşdur.

# Azercell-in mükafat və sertifikatları

## 2021

Beynəlxalq Standartlaşdırma Təşkilatının (ISO) bir sıra sertifikatlarını alıb.

- ISO 27001:2013: İnformasiya təhlükəsizliyinin idarə edilməsi
- ISO 14001:2015: Ekoloji menecment
- ISO 37001:2016: Rüşvətxorluğa qarşı idarəetmə sistemi
- ISO 18295-1:2017: Müştəri Xidmətləri Mərkəzləri
- ISO 9001:2018: Keyfiyyət İdarəetmə Sistemi
- ISO 45001:2018: Əməyin mühafizəsi və təhlükəsizlik texnikası
- ISO 10002:2018: Keyfiyyəti idarəetmə - Müştəri məmnuniyyəti - Şikayətlərə baxılması
- ISO 10004:2018: Keyfiyyəti idarəetmə - Müştəri məmnuniyyətinin monitorinqi və ölçülməsi

## 2022

- ISO/IEC 27001 sertifikatı: İnformasiya Təhlükəsizliyi İdarəetmə Sistemi.
- Reklam və marketinq sahəsində səmərəli və kreativ fəaliyyətinə görə “Felis Azərbaycan” tərəfindən yüksək qiymətləndirilib.
- Azercell-in ISO 37001:2016 “Antikorrupsiya idarəetmə sistemi” standartları üzrə sertifikatlaşdırılması uğurla bərpa edilib
- Müştəri Xidmətləri sahəsində ISO 10002:2018 standartı
- Azercell-in Milli Paralimpiya Komandasının məğrur tərəfdaşı qismində dəstəyi tanınıb və MPK tərəfindən “Ulduz tərəfdaş” mükafatına layiq görülüb.

## 2023

o Azərbaycan Cüdo Federasiyası ilə birgə həyata keçirilən “Qızlara ağ yaraşır” kampaniyasına görə “Ad Black Sea” festivalında Qran Pri Mükafatı.

o Layihə həmçinin “Dayanıqlı PR kampaniyaları” kateqoriyasında Qızıl mükafata layiq görülüb

o Mərkəzi Asiyanın ən böyük kommunikasiya festivalı olan “Red Jolbors”da 6 ölkədən daxil olan 509 müraciət arasından “Qızlara ağ yaraşır” kampaniyası aşağıdakı nominasiyalar üzrə qalib seçilib:

- 2023-cü il festivalının Qran-Prisi
- “PR kampaniyası” nominasiyasında – Qızıl mükafat
- “Kampaniya strategiyası” nominasiyasında – Qızıl mükafat
- “PR strategiyası” nominasiyasında – Qızıl mükafat
- “İnteqrasiya olunmuş reklam kampaniyası” nominasiyasında – Gümüş mükafat
- “Sosial çarx” nominasiyasında – Bürünc mükafat
- “Sponsorluq” nominasiyasında – Bürünc mükafat

# Bu Hesabat haqqında

Dayanıqlılığın bütün fəaliyyətimizə tam inteqrasiyası istiqamətində yolumuzun başlanğıcında, bu ilk Dayanıqlılıq Hesabatı Şirkətimiz üçün bu yeni istiqamətdə atılan mühüm addımdır. Yeni qəbul edilmiş ESG strategiyamıza əsaslanaraq, bütün daxili və xarici funksiyalarımıza dayanıqlılıq prinsiplərinin tammiqyaslı tətbiqini və korporativ və KSM strategiyalarımızı ESG hədəfləri ilə birləşdirmək üçün görülən səyləri əks etdirməyə çalışırıq. KSM strategiyamız cəmiyyətə müsbət təsir göstərməyimizə imkan versə də, çıxdığımız bu yolu maraqlı tərəflərimizlə bölüşməkdən qürur duyuruq.

Bu hesabat şirkətimizi maraqlı tərəflərə yeni nöqteyi-nəzərdən təqdim etmək, fəaliyyətimizin bütün incəliklərini ictimaiyyətə nümayiş etdirmək məqsədi ilə hazırlanıb. Dayanıqlılığın bir şirkət olaraq bizim üçün əhəmiyyətini və ESG üzrə fəaliyyət səmərəliliyimizi artırdırmaq üçün atdığımız addımları nümayiş etdirməyə çalışırıq. Sistem və strukturlarımızın təsvirləri son 5 ilin təfərrüatlarını əhatə etsə də, təqdim olunan kəmiyyət məlumatları, başqa cür göstərilmədiyi təqdirdə, 2022 və 2023-cü illərin ilk üç rübünü əhatə edir. Azercell-də Dayanıqlılıq Hesabatı təcrübəsini tətbiq etməyə davam etdikcə, yaxın illərdə məlumatların əhatə dairəsini genişləndirəcəyik. Dayanıqlılığın inteqrasiyasına nə dərəcədə ciddi yanaşdığımızı sübut etmək üçün, hesabat ili ərzində vacibliyin qiymətləndirilməsini apardıq. Bu qiymətləndirmə bizim və maraqlı tərəflərimiz üçün çox böyük əhəmiyyət kəsb edən mövzuları vurğulamağa imkan verdi və onları ESG strategiyamızın əsasına çevirdi. Bu proses haqqında daha ətraflı məlumat üçün səhifə 20, “Dayanıqlılığın vacibliyinin qiymətləndirilməsi” bölməsinə baxın. Vacib mövzulara (VM) istinadlar bütün hesabatda aşağıdakı ikonla göstərilir:

VM



Hesabat və ESG strategiyamızla bağlı hər hansı sorğunuz olduqda, office@azercell.com e-poçt ünvanına yazmaqla əlavə məlumat ala bilərsiniz.

# Dayanıqlılıqla bağlı istəklərimiz




## İdarəetmə və Dayanıqlılıq

Bizim üçün səmərəli idarəetmə, dayanıqlılıq təcrübəmizi üzərində qurmağa çalışdığımız təməldir. Buna görə də, ESG-nin ümumi biznes strategiyamıza tam inteqrasiyasına doğru irəliləməklə, uzunmüddətli vizyonumuzun effektiv şəkildə həyata keçirilməsini təmin edəcək yeni idarəetmə strukturu işləyib hazırlamışıq.

ESG strategiyamızın uğuruna görə ümumi məsuliyyət Azercell prezidentinin üzərinə düşür. Çarpaz funksional strateji rəhbərliyi təmin etmək və dayanıqlılıq strategiyasının həyata keçirilməsinə nəzarət etmək məqsədilə yüksək rəhbərlik nümayəndələrindən ibarət bir rəhbər komitə yaradılıb. İcra üçün gündəlik məsuliyyət isə strategiyanın mövzusuna və ya aspektinə uyğun olaraq şöbə müdirlərinin və onların işçi heyətinin üzərinə düşür. Buna görə də, dayanıqlılıq təşkilat daxilində əməkdaşların bir sıra vəzifələrinə daxil edilmişdir; məsələn, İR və SƏTƏM departamentlərinin rəhbərləri bu aspektlərlə əlaqədar olaraq biznes daxilində dayanıqlılıq fəaliyyətlərinin ölçülməsi, monitorinqi və həyata keçirilməsinə görə məsuliyyət daşıyırlar.

KSM kimi, bu yeni struktur da ESG-ni DNT-mizə həkk etməyə kömək edəcək və bütün əməkdaşları ESG və dayanıqlılığı öz vəzifələrinə daxil etməyə təşviq edəcəkdir.

## VM İnnovasiya və Dayanıqlılıq

Azərbaycanda aparıcı təşkilatlardan biri olaraq, biz bir sıra meyarlara görə innovasiyalar sahəsində ön sıralardayıq. Texnoloji innovasiyaları əsas əhəmiyyətli mövzularımızdan biri kimi müəyyən etdik, çünki innovasiyanın sənayenin gələcək inkişafını sürətləndirmək və eyni zamanda dəyər yaratmaq üçün əsas vasitələrdən biri olduğuna inanırıq.

Azercell üçün texniki innovasiya o deməkdir ki, biz rəqəmsal transformasiya vasitəsilə üstün müştəri təcrübəsi təmin edən və onların həyat imkanlarını genişləndirən yeni xidmətləri inkişaf etdirməyə davam edəcəyik. Biz abunəçilərə müştərilərə sadə həllər və fasiləsiz bağlantı təqdim etməklə sonsuz imkanlar açan texnoloji gələcəkdən yararlanmaq üçün imkan yaratmağı hədəfləyirik. Telekommunikasiya infrastrukturuna davamlı investisiyalarımız təkcə abunəçilərimizə fayda gətirməyəcək, həm də ölkənin iqtisadi artımını və inkişafını dəstəkləyəcəkdir. Digər yerli şirkətlər üçün müştəri xidməti, layihə idarəetməsi və İT tətbiqetmələri üçün standartlar təyin edərək bazar lideri olmaq üçün innovativ üsullarımızdan istifadə etmişik.

Gələcək üçün sağlam və təhlükəsiz cəmiyyət, rəqəmsal bağlantı və təhsili təmin etmək üçün innovativ texnologiyalardan istifadə etdiyimiz üçün, KSM strategiyamıza da innovasiyaları daxil etmişik. Hansı regionda yaşamağınızdan asılı olmayaraq, fasiləsiz bağlantının olduğu rəqəmsal inklüziv cəmiyyətin innovativ vizyonunu yaratmışıq.

## Azercell-in ən son innovasiyaları

Cəmiyyətin və korporasiyaların üzləşdiyi problemlərə innovativ həllərimiz bizə dayanıqlı şəkildə cavab tədbirləri görməyə imkan verir. İnanırıq ki, innovasiya tərəqqiyə təkan verir və dayanıqlılıq səylərimizdə zəruridir. Ən son texnoloji tendensiyaların inteqrasiyası vasitəsilə biz zəif xidmət göstərilən icmaların maliyyə inklüzivliyinə töhfə verməklə, daha yaxşı rəqəmsal inklüzivlik təmin etməklə, yerli müəssisələrə dəstək verməklə və uşaqların onlayn təhlükəsizliyini təmin etməklə qadınlar, gənclər və əlilliyi olan şəxslərin iqtisadi və sosial iştirakını asanlaşdıra bilmişik.

İnnovasiya öhdəliyimiz dayanıqlılıq öhdəliyimizin birbaşa əksidir və biz irəlilədikcə müştərilərimizə daha yaxşı xidmətlər göstərmək üçün yeni kreativ yollar axtarmağa davam edəcəyik.



# Strategiya və Əsas fəaliyyət istiqamətləri

Korporativ məsuliyyətə sadiqliyimizin davamı olaraq, hesabat ili ərzində güclü ESG strategiyası işləyib hazırlayaraq bu transformasiya yoluna qədəm qoymuşuq. Müsbət dəyişiklikləri təşviq etmək və dayanıqlı gələcəyə töhfə vermək öhdəliyi ilə, bu hesabat korporativ təşəbbüslərimizdə bundan sonra rəhbər tutacağımız əsas komponentləri ortaya qoyur. Biznes təcrübələrimizi ekoloji, sosial və iqtisadi mülahizələrə uyğunlaşdırmaqla biz təkcə indiki dövrün tələblərinə cavab verməyi deyil, həm də gələcək nəsillərin rifahını qorumağı hədəfləyirik.

ESG strategiyamız gələcək illər üçün məqsəd və öhdəliklərimizi müəyyənləşdirən Birləşmiş Millətlər Təşkilatının Davamlı İnkişaf Məqsədlərinə (DİM-lərə) uyğun olaraq hazırlanmışdır. Strategiyanın hər bir komponenti mənalı təsir göstərə biləcəyimizi və cəmiyyətimizə və işimizdən təsirlənən insanlara dəyər qatacağımızı düşündüyümüz müvafiq məqsədlərlə əlaqəlidir.

Dayanıqlılığa sadiqliyimizin daha bir sübutu olaraq, hesabat ili ərzində BMT-nin Qlobal Sazişinə qoşulduq və bununla da insan hüquqları, əmək hüquqları, ətraf mühit və korrupsiya ilə mübarizə sahəsində öhdəliyimizi gücləndirdik. Ortaq bir məqsədə doğru çalışan bu şirkətlər birliyinə qoşulmaqla, 2024-cü ildə ilk Tərəqqi Hesabatımızı dərc etməyi səbrsizliklə gözləyirik.

## ESG strategiyasının komponentləri

### Komponent 1. Azərbaycanın aparıcı telekommunikasiya şirkəti




Enerji səmərəliliyinə malik texnologiyaları inkişaf etdirmək, şəbəkənin iş səmərəliliyini optimallaşdırmaq və bərpa olunan enerjiyə investisiya yatırmaq səylərimiz bu məqsədə çatmaq üçün öz üzərimizə düşəni etməyə imkan verir.




Bu məqsədə bizim töhfəmiz, innovasiyaları təşviq etmək, yeni məhsul və xidmətlərin inkişafını təşviq etmək və dayanıqlı biznes təcrübələrini davamlı şəkildə tətbiq etmək, nəticədə maraqlı tərəflərimiz üçün uzunmüddətli dəyər yaratmaq üçün çalışdığımız tədqiqat və inkişafa investisiyalarımızdan ibarətdir.

## Komponent 2. Telekommunikasiyanın inkişafı




Azercell üçün bu komponent müştərilərimizin rahat işləməsini təmin edən və rəqəmsal texnologiyalardan istifadə etməklə "ağıllı şəhər" infrastrukturunun inkişafına töhfə verən yeni xidmətlərin işlənib-hazırlanması deməkdir. 5G əhatə dairəsini təmin etməyi və "ağıllı şəhərlər" üçün "ağıllı maliyyə" və ya elektron səhiyyə kimi kommunikasiya texnologiyalarından istifadə etməyi planlaşdırırıq.

## Komponent 4. Əməkdaşlarımız və İxtisaslı kadrlarımız




Əməkdaşlarımız işimizin əsasını təşkil edir, bu da bizi yüksək iş məmnuniyyətinin olduğu sağlam və ədalətli iş mühiti yaratmağa sövq edir. Əməkdaşlarımız üçün dəyər yaratmaqda prioritet ola biləcək üç sahəni müəyyən etmişik. Hər bir prioritet sahə çərçivəsində biz qarşımıza üzərində işləyəcəyimiz konkret məqsəd və hədəflər qoymuşuq.

## Komponent 3. İmkanların genişləndirilməsi və İnklüzivlik




Cəmiyyətin bütün qruplarının Azercell-in təklif etdiyi imkanlardan faydalanmasını istəyirik. Rəqəmsal inklüziv cəmiyyətə qəti şəkildə inanmaqla yanaşı, zəif xidmət göstərilən icmalar üçün kommunikasiyaya daha geniş çıxışı təmin edən layihələr üzərində işləyirik və hökumət təşkilatları ilə əməkdaşlıq çərçivəsində rəqəmsal inklüzivliyi artıran layihələri dəstəkləyirik. Azərbaycanda aparıcı telekommunikasiya şirkəti olaraq, biz qadınlar arasında təlim və rəqəmsal savadlılığı təşviq etmək üçün rəqəmsal resurslar təklif etməklə gender müxtəlifliyinə və inklüzivliyə töhfə verə bilirik.

# Dayanıqlılıq yanaşmamız

## Maraqlı tərəflərin iştirakçılığı

Gördüyümüz işin maraqlı tərəflərimizə birbaşa və ya dolayı təsir göstərdiyini qəbul edərək, maraqlı tərəflərin iştirakçılığına böyük əhəmiyyət veririk. Bütün maraqlı tərəf qruplarından fəaliyyətimiz haqqında rəy və məlumatın alınması fəaliyyətimizin dəyərini maksimum dərəcədə artırmağa, bütün problemlərin vaxtında həll olunmasını və təkliflərin düzgün nəzərdən keçirilməsini təmin etməyə imkan verir.

Maraqlı tərəflərimizlə əlaqə qurmaq üçün onlara lazımi məlumatları verməyə və birbaşa rəy almağa imkan verən effektiv kommunikasiya kanalları yaratmışıq. Məlumatın dəqiq təqdimatını təmin etmək üçün maraqlı tərəflərimizi qruplara ayırdıq, hər birinə bir neçə kommunikasiya vasitəsi təyin etdik.

### Azercell-in maraqlı tərəf qrupları

- Dövlət qurumları
- B2B
- İctimaiyyət
- Təhsil müəssisələri
- Əməkdaşlar
- Təchizatçılar
- QHT-lər
- Maliyyə institutları
- B2C
- Media

*Maraqlı tərəf qrupundan asılı olaraq istifadə etdiyimiz kommunikasiya kanalları fərqlənə bilər. Kanallar Şəkil 8-də təsvir edilmişdir.*

### Kommunikasiya kanalları (steykholder qrupları üzrə)

| | |
|---|---|
| Vebsayt | Bütün maraqlı tərəf qrupları |
| Press-relizlər | Bütün maraqlı tərəf qrupları |
| Sosial media | • B2C • QHT-lər • İctimai • Media |
| Görüşlər | Tələb əsasında bütün maraqlı tərəf qrupları |
| Mətbuat konfransları | • Media |
| Əməkdaşların iştirakçılıq vasitələri | • Əməkdaşlar |
| Sorğular | • B2C • B2B • Əməkdaşlar |
| Əmək yarmarkaları | • Təhsil müəssisələri |
| Xeyriyyə tədbirləri | • İctimai • Media |
| Mobil tətbiq | Bütün maraqlı tərəf qrupları |
| Müştəri Xidmətləri platformaları | • B2C • B2B • İctimai |




# Dayanıqlılığın əhəmiyyətliliyinin qiymətləndirilməsi

ESG strategiyamızda göstərilən hədəf və məqsədlərin aktuallığını təmin etmək və dayanıqlılıq hesabatımızda əks olunan məlumatların şəffaflıq və düzgünlüyünü təsbit etmək üçün hesabat ili ərzində kompleks əhəmiyyətlilik qiymətləndirməsi apardıq. Bu məsələyə sadiqliyimizi nümayiş etdirmək üçün, əhəmiyyətlilik qiymətləndirməmizin məhdud yoxlanışını aparmaq üçün üçüncü şəxs xidmət təminatçıları cəlb etdik.

Proses ikikomponentli olub, həm təsirin, həm də maliyyə əhəmiyyətliliyinin hərtərəfli qiymətləndirilməsindən ibarət idi. Birincisini qiymətləndirmək üçün Azercell-in xarici iqtisadiyyata, ətraf mühitə və cəmiyyətə təsirini nəzərdən keçirdik, ikincisi isə Azercell-in ətraf mühit və cəmiyyətdəki xarici problemlərlə əlaqəli imkan və risklərinin qiymətləndirilməsini əhatə etdi.

Bu prosesdə fəaliyyətimiz və onların dayanıqlılıq prioritetləri barədə rəy almaq üçün bütün müvafiq daxili və xarici maraqlı tərəflərə müraciət etdik. Müəyyən edilmiş qruplarla sorğular, müsahibələr və ya fokus qrupları vasitəsilə əlaqə qurduq və onları ən çox maraqlandıran və aktual olan mövzuları araşdırdıq. Toplanan məlumatlar təsnif edildi və xəritələndi, bu da dayanıqlılıq yolumuzda əsas əhəmiyyət kəsb edən məsələlərə dair əyani vəsait oldu.

Qiymətləndirmə nəticəsində hesabat boyunca daha ətraflı müzakirə olunan 12 əhəmiyyətli mövzunu fərqləndirdik.

# Əhəmiyyətlilik matrisi




Daha sonra 12 prioritet sahə üst, orta və alt kvadrantlarda prioritet səviyyələrini təyin edən 3 kvadranta bölündü.

# Əhəmiyyətli mövzular

| | |
|---|---|
| **Üst kvadrantda müəyyən edilmiş məsələlər** | Şəbəkənin genişləndirilməsi |
| | Məlumatların məxfiliyi |
| | Texnoloji innovasiyalar |
| **Orta kvadrantda müəyyən edilmiş məsələlər** | Etik Biznes |
| | İşə qəbul, ixtisaslı kadrların inkişafı və saxlanması |
| | Kommunikasiya vasitələrinə çıxış |
| | Bərabərlik, müxtəliflik və inklüzivlik |
| | Əməyin təhlükəsizliyi və sağlamlıq |
| **Alt kvadrantda müəyyən edilmiş məsələlər** | Enerji idarəetmə və Bərpa olunan enerji |
| | İqlim dəyişikliyinə reaksiya və “Karbon ayaq izi”nin azaldılması |
| | Dairəvi iqtisadiyyat |
| | Su və tullantıların idarə edilməsi |

# Ətraf mühit

# Ətraf mühit

Şirkət olaraq inanırıq ki, texnoloji tərəqqi təkcə iqtisadi inkişaf vasitəsi deyil, həm də ekoloji menecmentin yaxşılaşdırılması üçün katalizatordur. Ətraf mühitə təsirimizi innovasiya obyektivindən idarə etməyə yanaşırıq, çünki qarşılaşdığımız problemlərə yaradıcı həll yolları axtarırıq. Bu problemləri baş-başa həll etməyimizi təmin etmək və iqlim dəyişikliyinin aktuallığı ilə bağlı cavab reaksiyamızı sistemləşdirmək üçün etibarlı bir ekoloji siyasət işləyib hazırladıq. Bu siyasət sayəsində risk və təsir qiymətləndirməsini, fövqəladə hallara cavab verməyi və ətraf mühitə dəyən ziyanı minimuma endirmək üçün innovasiyalardan istifadə etməyi əhatə edən dayanıqlı və strukturlaşdırılmış bir idarəetmə yanaşması tətbiq edirik.

Telekommunikasiya sənayesinin lideri olaraq hesabatlılığı, şəffaflığı və özəl və dövlət sektorları ilə əməkdaşlığı təşviq edən həll yollarını tapmaq məsuliyyətini öz üzərimizə götürürük. Ən son texnologiyaları işimizə tətbiq etməklə yerli bazar oyunçularına yol açırıq. İnnovativ liderliyimizin bir çox nümunəsi olsa da, bu bölmədə hesabat ilinin Azərbaycanda ilk Fintek olan aKart, günəş enerjisi ilə işləyən baza stansiyaları və dairəvi iqtisadiyyatın elementləri kimi əsas hadisələrinə diqqət yetirəcəyik. Bu təşəbbüslər nəticəsində artıq ekoloji menecment fəaliyyətimizdə irəliləyiş müşahidə edə bilərik.

2020-ci ildə, ilk Dayanıqlılıq Hesabatımızda qürurla bildirdiyimiz daha bir mühüm nailiyyət əldə etdik. Ətraf mühitin səmərəliliyini artırmaq öhdəliyimizin sübutu olaraq, Ekoloji menecment sistemimiz üçün ISO 14001:2015 standartını aldıq.

Ətraf mühitin qorunması ilə bağlı bu öhdəliyimiz sayəsində dayanıqlılığa və planetimizlə ahəngdar birgəyaşayışa üstünlük verən bir korporativ mədəniyyət inkişaf etdirməklə, təkcə normativ tələblərə cavab verməyə deyil, həm də onları aşmağa çalışırıq.




## Azercell-in ekoloji təşəbbüsləri

**LED işıq**

**Elektrikli avto üçün şarj stansiyaları**

**Günəş enerjisi**

**İşlənmiş batareyalar**

# Strategiya və Yanaşma

## İdarəetmə

Ekoloji menecment sistemimiz “Ətraf mühitin mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanun və ISO 14001 Beynəlxalq Ekoloji Menecment Standartı əsasında işlənib-hazırlanmış kompleks Ətraf Mühitin Mühafizəsi Siyasəti ilə tənzimlənir.

Bu siyasət, ekoloji menecment vizyonumuzu səmərəli şəkildə həyata keçirməyimizə kömək edən bir sıra prosedur və idarəetmə sistemlərini əhatə edir. Bu siyasətə uyğun olaraq, ekoloji menecmentin əsas prinsipləri və təfərrüatlarını izah etmək və siyasətin dəqiq və effektiv şəkildə başa düşülməsi və həyata keçirilməsini təmin etmək üçün hazırlanmış bir sıra təlimatlar hazırladıq. Təlimatlarda bu siyasətin həyata keçirilməsinə nəzarət edən hər bir departamentin rəhbərləri üçün tövsiyələr var. Bu siyasəti tətbiq etmək üçün təlimatlara sahib olmaq, dəyərlərimizi gündəlik fəaliyyətlərə daxil etməyimizə və əməkdaşlarımızı ətraf mühitlə bağlı daha şüurlu seçimlərə sövq etməyimizə kömək edir.

Menecment yanaşmamızın effektivliyini təmin etmək üçün ətraf mühitə minimal təsir göstərərək dayanıqlı artıma nail olmaq üçün Ekoloji Siyasətimiz çərçivəsində prosesə əsaslanan iş metodunu tətbiq etdik. Bu modelin elementləri yaxşı sənədləşdirilmişdir və biz onları bütün biznes əməliyyatlarımıza daxil etməyə çalışırıq.



## Azercell-in Ekoloji menecment yanaşmasının 5 elementi

### 01 Ətraf mühitlə bağlı siyasət

Bu ekoloji məsələlərlə bağlı siyasətlərin hazırlanmasını nəzərdə tutur. Buraya dayanıqlılıq, ekoloji normativlərə riayət etmək öhdəliyimizin xülasəsi və ətraf mühitə təsirimizin azaldılması ilə bağlı xüsusi məqsəd və hədəflər daxildir.

### 02 Planlaşdırma

Planlaşdırma mərhələsində ekoloji siyasətin effektiv şəkildə həyata keçirilməsi üçün strategiya və planlar işləyib hazırlayırıq. Buraya potensial ekoloji risklərin müəyyənləşdirilməsi, dayanıqlı təcrübələr üçün məqsədlərin qoyulması və bu məqsədlərə çatmaq üçün fəaliyyət planlarının hazırlanması daxildir.

### 03 İcra et və Davam et

Bu mərhələ planların həyata keçirilməsini əhatə edir. Gündəlik fəaliyyətimizə ekoloji cəhətdən təmiz metodların tətbiqi üçün yuxarıda göstərilən strategiya və təşəbbüsləri daxil edirik. Buraya enerjiyə qənaət edən texnologiyalar, tullantıların azaldılması tədbirləri və digər dayanıqlı təcrübələrin tətbiqi daxildir.

### 04 Audit və Düzəliş

Müəyyən edilmiş ekoloji siyasətə sadiqliyimizi və həyata keçirilən strategiyaların effektivliyini qiymətləndirmək üçün müntəzəm auditlər aparılır. Hər hansı kənaraçıxma və ya problem aşkar edildikdə, onların dərhal aradan qaldırılması üçün düzəlişedici tədbirlər görülür. Bu təkrarlanan proses ekoloji səmərəlilik göstəricilərimizin daim yaxşılaşmasını təmin etməyə kömək edir.

### 05 İdarəetmə Sistemlərinin qısa təsviri

Bu element ümumilikdə mövcud idarəetmə (menecment) sistemləri haqqında xülasə və ya sənədlərin yaradılmasını əhatə edir. O, hər bir mərhələnin bir-biri ilə necə əlaqəli olduğunu izah edən bütün proses əsaslı iş metodunun icmalını ehtiva edir və ətraf mühitə minimum təsirlə dayanıqlılığa nail olmaq kimi ümumi məqsədimizə töhfə verir.

Yanaşmamızın şəffaflıq və dəqiqliyini təmin etmək üçün siyasətimizin həyata keçirilməsini və tərəqqisini effektiv şəkildə qeyd etməyə imkan verən monitorinq prosedurları müəyyən etmişik. Bu, ətraf mühitə təsir edən fəaliyyətlərimizin etibarlı şəkildə ölçülməsi, izlənilməsi və bildirilməsini təmin edir. Mütəxəssislər çoxsaylı ərazilərdə tullantıların əmələ gəlməsi kimi sahələrə müntəzəm olaraq nəzarət edirlər və tələblər yerinə yetirilmədikdə, düzəlişedici tədbirlər görülür və monitorinq proseduruna ümumi nəzarət Ekoloji menecment üzrə ekspertin üzərinə düşür. Bu məsuliyyət bölgüsü ekoloji siyasətimizin biznesin bütün səviyyələrində həyata keçirilməsinə kömək edir. Bundan əlavə, proseslərimizin effektivliyini qiymətləndirmək üçün dövri auditlər və qiymətləndirmələr aparırıq, ümumi siyasəti isə tərəflər illik əsasda nəzərdən keçirməlidirlər.



# Ekoloji risklərin idarə edilməsi

İqlim dəyişikliyinin aktuallığını və fəaliyyətimizin ətraf mühitə təsirini nəzərə alaraq, ekoloji risklərin qiymətləndirilməsi üçün hərtərəfli proses tətbiq etmişik. Bu sistemli yanaşma, potensial riskləri və zəiflikləri müəyyənləşdirmək və anlamaq üçün fəaliyyətimizə xas olan ətraf mühitə zərərli təsirlərin diqqətlə öyrənilməsini əhatə edir.

Bu proaktiv strategiya bizə ətraf mühitə təsiri effektiv şəkildə azaltmaq və idarə etmək üçün tədbirlər hazırlayıb həyata keçirməyə imkan verir. Sadəcə müəyyənləşdirmədən kənara çıxaraq, prosesimiz davamlı monitorinq və dövri yenidən qiymətləndirmə üçün güclü çərçivəni əhatə edir, ekoloji təşəbbüslərimizin dinamik qalmasını və yaranan çətinliklərə və inkişaf edən qabaqcıl təcrübələrə cavab verməsini təmin edir.

Qiymətləndirmə çərçivəsində onu həyata keçirən ekspertin bir neçə vəzifəsi var. Bu vəzifələrə şirkətin tərəfdaşları və podratçıları tərəfindən ekoloji aspektlərin uçotu prosesinin monitorinqi və tətbiqi, ətraf mühitin mühafizəsi üzrə təlimlərin keçirilməsi və iş yerində sağlamlığı və təhlükəsizliyi təşviq etmək üçün mühafizə vasitələrinin istifadəsinin təşviqi daxildir.

Təbii ehtiyatların və xammalın istifadəsi, ətraf mühitə təsir edən çirklənmə amilləri, yanacaq anbarı və s. kimi ekoloji aspektləri bildirmək üçün Risk qiymətləndirmə forması istifadə olunur. Nümayəndələr hər il bu qiymətləndirmənin yenilənməsindən məsuldurlar. Qiymətləndirmə forması nümayəndələrə ətraf mühitə faydalı və ya zərərli sahələri müəyyənləşdirmək üçün dəqiq müəyyən edilmiş bir metod təklif edir. Aspektlər normaldan təhlükəliyə doğru miqyasda qiymətləndirilir və yerləşdirilir.



## VM “Karbon ayaq izi”nin azaldılması istiqamətində addımlarımız

Azərbaycanda İKT sahəsində aparıcı şirkət olaraq, biz müştərilərimizə ətraf mühitə minimal təsiri olan yüksək keyfiyyətli xidmətlər təqdim etməklə daha dayanıqlı cəmiyyətin yaradılmasına fəal şəkildə töhfə verməyə çalışırıq. Dayanıqlılıq öhdəliyimiz, xərcləri azaltmaqla daha yüksək istehsal məhsuldarlığına nail olmaq məqsədi ilə ekoloji cəhətdən şüurlu təcrübələrin fəaliyyətimizə tammiqyaslı inteqrasiyasında özünü göstərir.

Risk və təsir qiymətləndirmə prosedurlarımızla ətraf mühitə əsas zərərli təsirimizin enerji istehlakı ilə yanaşı emissiya və tullantı istehsalı olduğunu müəyyən edə bildik. Qiymətləndirmə aparıldıqdan sonra fəaliyyətimizin zərərli təsirlərini azaltmaq üçün tədbirlər görməyə başladıq və bərpa olunan və hibrid enerjidən istifadə modellərinin daha geniş tətbiqi imkanlarını araşdırdıq.

Qiymətləndirmənin nəticələri enerji istehlakımızın “ekoloji ayaq izi”mizə ən çox töhfə verən amillərdən biri olduğunu göstərdiyinə görə, biz ofislərimiz və baza stansiyalarımız vasitəsilə istehlak nümunələrimizi optimallaşdırmaq üçün səylər göstərməyə başlamışıq.

Beləliklə, Qarabağdakı iki baza stansiyamız, eləcə də Qobustanda bir və Tovuzda bir stansiyamız indi günəş enerjisi ilə işləyir. Hazırda Qarabağda hibrid stansiyanın tikintisi aparılır, yaxın illərdə isə daha 33 stansiyanın tikilməsi planlaşdırılır ki, bunun da nəticəsində bütün Azərbaycan üzrə bərpa olunan enerji mənbələri ilə işləyən baza stansiyalarının ümumi sayı 37-yə çatacaq. Vizyonumuz, önümüzdəki illərdə daha çox obyektimizdə enerjini bərpa olunan enerjiyə çevirməkdir ki, bu da məsuliyyətli və səmərəli enerji istehlakı vasitəsilə “karbon ayaq izi”ni azaltmaq məqsədimizə çatmağımıza imkan verəcəkdir.

Ekoloji şüur mədəniyyətini inkişaf etdirmək və əməkdaşlarımız arasında enerjidən səmərəli istifadəni təşviq etmək üçün hərtərəfli təlim proqramı tətbiq etdik. Bu proqram, elektrik istehlakının azaldılmasına diqqət yetirmək üçün xüsusi olaraq hazırlanmışdır və iştirakçılara civə lampalarının düzgün ölçülməsi və dəyişdirilməsini öyrədir. Azercell ofislərimiz günəş enerjisindən istifadəyə yönəlmiş texnologiyaların tətbiqi təşəbbüslərinə fəal şəkildə investisiya yatırır və hazırda LED işıqlandırma texnologiyalarından istifadəyə keçmək üçün getdikcə daha çox səy göstərilir.

Bundan əlavə, Scope 3 kateqoriyalı tullantılarımızın böyük bir seqmenti əməkdaşlarımızın tıxacda sərf etdiyi vaxtı təşkil etdiyindən, biz hesabat ilinin iyul ayından etibarən 50% hibrid iş rejiminə keçdik ki, bu da yanacaq istehlakından asılılığın azaldılmasını daha da təşviq edəcəkdir.



# VM Tullantıların idarə edilməsi

Azercell olaraq, “Yaşıl Ofis” siyasətinə riayət edirik ki, bu siyasətə əsasən də yaranan bütün kağız tullantıları sistematik olaraq toplanır və təkrar emal müəssisəsinə göndərilir. 2012-ci ildə başladılan bu proqram təbiəti qorumaq səylərimizdə faydalı olduğunu sübut etdi.

Dayanıqlılıq yolu ilə irəlilədikcə, təkrar emal təşəbbüsümüzü digər tullantı növlərinə yaymaq üçün genişləndirməyin yeni yollarını fəal şəkildə axtarırıq. Gələcəyə baxışımız, bu səylərin gəlirliliyini artırmaq üçün təchizat zəncirimiz və biznes tərəfdaşlarımızla əməkdaşlığı gücləndirməyi əhatə edir.

## Tullantıların əmələ gəlməsi, 2022 və 2023



## Təkrar emal edilmiş batareyalar

Bir şirkət olaraq, fəaliyyətimiz nəticəsində ətraf mühitə zəhərli elektron tullantıların meydana gəldiyini bildiyimiz üçün, dövriliyi proseslərimizə getdikcə daha çox daxil edirik. Belə ki, batareyaların istismar müddətini uzatmaq və onları təyinatı üzrə yenidən istifadə etmək məqsədilə biz baza stansiyalarımızdan batareyaları çıxarmaq üçün üçüncü şəxs xidmət təminatçıları ilə əməkdaşlıq edirik. İstifadə edilmiş batareya və akkumulyatorları toplamaq məqsədilə ofisimizdə istifadə edilmiş batareyaların toplanması üçün xüsusi qutular da quraşdırmışıq. Bu təşəbbüs ətraf mühitə təsirimizi minimuma endirməklə yanaşı, həm də əməkdaşlarımızın ekoloji şüurunu artırmağı hədəfləyir və ətraf mühitin mühafizəsi öhdəliyimizi vurğulayır.



# VM Su resurslarının idarə edilməsi

Su ehtiyatlarının mühafizəsi Ekoloji menecment sistemimizin mühüm aspektidir və bu, bizə təbii sərvətlərdən asılılığımızı və onların tükənməsini məhdudlaşdırmağa imkan verir. Şirkətə məxsus avtomobillərin yuyulması kimi inzibati fəaliyyətlərimiz kontekstində strateji olaraq önümüzdəki illərdə su filtrasiya sistemini tətbiq etməyi planlaşdırırıq. Bu sistem yuma prosesində istifadə olunan suyun 95%-ni geri qaytarmaq üçün nəzərdə tutulmuşdur.

**İndiyədək su istehlakımızda 2022-ci ildəki 23.663 m3-dən 2023-cü ildə 17.181 m3-ə qədər 27% inanılmaz azalma qeydə almışıq.**



# VM İnnovativ texnologiyalar və Məlumatların saxlanması

Kompleks ekoloji strategiyamız çərçivəsində Azercell dayanıqlı təcrübələrin tətbiqi öhdəliyinə sadiqdir. Ətraf mühitə hörmət nümunəsi olan və əsas dəyərlərimizi əks etdirən qabaqcıl texnologiya və xidmətlərin inkişafı, tətbiqi və təbliğində fəal iştirak edirik.

Azercell-in son 1 ildə əldə etdiyi nailiyyətlərdən biri də Azərbaycanda ilk fintek olan “aKart”ın işlənib-hazırlanması olmuşdur. Azərbaycan əhalisinin təxminən 70%-nin bank xidmətlərinə çıxışı olmadığından, fintek həllimiz əhalinin bu seqmentinin şəxsi mobil cihazları vasitəsilə onlayn bankçılıq xidmətlərindən istifadə etməsi üçün asan və sərfəli bir yol təqdim edir. Bu, təkcə inklüziv iqtisadiyyatın inkişafını sürətləndirmir, həm də nağd və fiziki kartlardan asılılığı azaltdığı üçün ətraf mühitə müsbət təsir göstərməyimizə imkan verir. O, həmçinin Apple Pay və Google Pay kimi populyar ödəniş üsulları ilə uyğundur ki, bu da istehlakçıların “karbon ayaq izi”ni daha da azaldır.

Məlumatların saxlanması probleminin ətraf mühitə mənfi təsirin başqa bir mənbəyi olduğunu qəbul edirik, çünki serverlərin soyudulması üçün çox miqdarda enerji tələb olunur. Ölkənin aparıcı telekommunikasiya şirkəti olaraq biz böyük həcmdə məlumatları idarə edirik və bu məlumatları onların ətraf mühitə təsirini azaldacaq şəkildə saxlamaq bizim borcumuzdur.

Dayanıqlılıq öhdəliyimizə uyğun olaraq, məlumatların saxlanma müddətini 3 ildən 2 ilə qədər azaltmağa qərar vermişik. Bu strateji qərar əlavə serverlərə investisiya yatırmaq ehtiyacını aradan qaldırır və bununla da artan enerji istehlakını azaldır və eyni zamanda məlumat anbarımızı saxlamağa imkan verir. Bundan əlavə, artıq fəal şəkildə istifadə olunmayan məlumatları arxivləşdirmək üçün bir protokol tətbiq edirik. Şəkil 14-də 2024-cü il üçün saxlama planımız göstərilir və son 4 ildəki tendensiya nümayiş etdirilir.



## Azercell-in planlaşdırılan məlumat anbarı



# Sosial

# Sosial

Dayanıqlılıq öhdəliyimizin mərkəzində uğurun sadəcə maliyyə göstəriciləri ilə bağlı olmadığını dərindən dərk etmək dayanır. Ölkənin ən böyük telekommunikasiya şirkəti olaraq cəmiyyətə müsbət töhfə vermək və mənalı əlaqələri təkcə xidmətlərimizlə deyil, həm də xidmət etdiyimiz icmalara təsirimizlə gücləndirmək məsuliyyətimizi dərk edirik.

ESG-nin sosial aspektindəki təşəbbüslərimizlə dayanıqlılıq səylərimizi gücləndirməyi hədəfləyirik və bunu iki əsas komponenti — əməkdaşlarımıza sadiqliyimiz və icmayönümlü layihələrimizi vurğulamaqla edirik. Bizim yanaşmamız ənənəvi iş təcrübəsindən kənara çıxaraq vahid və uzunmüddətli təsir göstərməyə çalışır.

Şirkət olaraq, başa düşürük ki, əməkdaşlarımız və fəaliyyət göstərdiyimiz cəmiyyət uğurlarımızın əsas hərəkətverici qüvvəsidir və biz davamlı olaraq hamının inkişaf etmək və öz potensialını reallaşdırmaq imkanına malik olduğu bir mədəniyyət inkişaf etdirmək üçün yeni yollar axtarırıq. Səylərimiz aldığımız çoxsaylı mükafatlar və tanınmalarla, o cümlədən MDB-də 2021-ci ildə İnsan Kapitalı standartı olan “Investors in People” (IIP) - İnsana Sərmayə Standartı üzrə Platin Sertifikatını alan ilk şirkət olmaqla dəfələrlə qiymətləndirilib.




Korporativ strategiyamızın bir hissəsi olaraq, biz “Azərbaycanda ən arzuolunan iş yerlərindən birinə çevrilməyə” çalışırıq və bu komponentin biznesimiz üçün əhəmiyyətini vurğulamaq məqsədilə qətiyyətli tədbirlər görməyə davam edəcəyik.

## Azercell-in kadr strategiyasının 5 əsas prinsipi

### Biz **FƏAL DİNLƏYİCİYİK**

Biz ardıcıl iştirak və fəal dinləmə vasitəsilə əməkdaşlarımızın ehtiyaclarını prioritetləşdiririk, onların səsinin həm gündəlik, həm də strateji qərarlarımızda nəzərə alınmasını təmin edirik.

### Biz **VAHİD İCMAYIQ**

Biz vahid Azercell icmasıyıq və müştərilərimizə müstəsna xidmət göstərmək məqsədilə əməkdaşlarımız üçün müsbət, inklüziv mədəniyyəti qoruyub saxlamağa çalışırıq.

### Biz **RİFAHI QORUYURUQ**

Əməkdaşlarımızın təhlükəsizliyi, sağlamlığı və ümumi rifahı müzakirə olunmayan prioritetlərdir və biz onların maksimum rifahını təmin etmək öhdəliyi daşıyırıq.

### Biz **MÜXTƏLİFLİK, BƏRABƏRLİK VƏ İNKLÜZİVLİYİ MÜDAFİƏ EDİRİK**

Biz müxtəlifliyin, xüsusən də qadınlara bərabər hüquqların verilməsi və onların imkanlarının genişləndirilməsinin tərəfdarıyıq, bununla da, həqiqi inklüzivliyin ədalət təməli üzərində qurulduğunu qəbul edirik.

### Biz **İNSANLARA SƏRMAYƏ QOYURUQ**

Biz əməkdaşlara və onların karyerasına sərmayə qoyuruq, onların bizim ən qiymətli sərvətimiz olduğunu bilirik.

# Əməkdaşlarımız

Azercell-in uğurunun əsasını təşkil edən əməkdaşlarımız şirkət kimi məqsədimizə çatmaqda mərkəzi yer tuturlar. Əməkdaşlarımızın gündəlik səyləri olmadan məhsul və xidmətlərimizin keyfiyyətinin standartlarımıza uyğun olmayacağını dərk edirik. Buna görə də, əməkdaşlarımızın layiq olduğu tanınma və imkanları təmin etməyimiz çox vacibdir.

Birbaşa işə götürdüyümüz 900-dən çox işçidən ibarət Azercell əməkdaş icması mahiyyət etibarilə şirkətimizin əsas məqsədi və dəyərlərinə uyğundur. İnsan yönümlü işəgötürən olaraq qəti şəkildə inanırıq ki, insan resurslarının idarə edilməsinin yeganə uğurlu üslubu hər bir əməkdaşa fərdi yanaşmanın tətbiq edilməsidir. Azercell-də formalaşdırdığımız mədəniyyət loyallığın artırılmasına, fərdiləşdirilmiş sistem vasitəsilə əməkdaşlarımızın ehtiyaclarının ödənilməsinə yönəlmişdir. Biz daim rəy toplayırıq və əməkdaşlarımızı narahat edən məsələləri xoş münasibət və hörmətlə dinləyirik. Şirkət olaraq, işçilərə fərdi və hərtərəfli qayğımızı əks etdirən bir mühit təmin edib onu qorumağa çalışırıq.

## Əməkdaşlarımıza dair statistika

| Qadın | Göstərici | Kişi |
|---|---|---|
| 348 | **Əməkdaşlar,** cinsiyyət üzrə bölgü | 567 |
| 38% | **Əməkdaşların payı,** cinsiyyət üzrə bölgü | 62% |
| 41 | **Üst səviyyə rəhbərlik,** cinsiyyət üzrə bölgü | 92 |
| 31% | **Üst səviyyə rəhbərliyin payı,** cinsiyyət üzrə bölgü | 68% |

# Fəal dinləmə: Əməkdaşların iştirakçılığı

Məhsuldar iş mühiti yaratmaq səyimizdə əməkdaşların iştirakçılığı bizim üçün çox vacibdir. Bu səyimizi şərtləndirən amillər çeviklik, Azercell əməkdaşlarına xüsusi diqqət ayırmağımız və iştirakçılığa sövq edən liderliyimizdir. Şirkətdə iştirakçılıq səviyyəsinə nəzarət etmək üçün, prosesin şəffaflığını təmin etmək məqsədilə üçüncü şəxs xidmət təminatçılarının dəstəyi ilə illik sorğular keçiririk.

## “Fəal dinləmə” strategiya bölməsinin komponentləri

- Əməkdaşların iştirakçılığı haqqında sorğular
- "Speak-Up Line" proqramı
- Təkbətək görüşlər
- "Açıq qapı" siyasəti

Əməkdaşların iştirakçılığı və təcrübəsi haqqında sorğumuz, əməkdaşlarımızın iş məmnuniyyətini ölçmək üçün fəal şəkildə rəy almaq üçün əsas vasitəmizdir. 2023-cü ildə cavablama nisbətimiz 80%-ə çatdı, sorğuda 679 nəfər iştirak edirdi. Əməkdaşlarımızın iştirakçılıq nisbətlərini qiymətləndirməklə yanaşı, bu sorğular İnsan Resursları İdarəetmə Sistemimizin əsas güclü və inkişaf etdiriləcək sahələrini müəyyənləşdirmək üçün çox vacibdir. Əməkdaşlarımızdan birbaşa rəy almaqla, müvafiq hədəflər qoya və gələcək illər üçün fəaliyyət planları hazırlaya bilirik.



## Əməkdaşların iştirakçılığına dair sorğunun (employee engagement survey) nəticələri




Nəticələr göstərdi ki, əməkdaşlarımız bütün gördüyümüz işlərdə nümayiş etdirdiyimiz etik standartlar, bir-birimizə hörmət və "yuxarıdan aşağıya" kommunikasiyanın şəffaflığı və aydınlığını Azercell-in əsas güclü tərəfləri hesab edirlər. Sorğunun nəticələrinə əsasən, biz həmçinin məhsuldarlıq və səmərəliliyi təmin edən departament, proses və sistemlər arasında əməkdaşlıq, eləcə də fəaliyyət səmərəliliyinin idarə edilməsi kimi təkmilləşdiriləcək sahələri müəyyən etdik. Bu sorğulardan əldə edilən nəticələr idarəetmə sistemlərimizi daim təkmilləşdirmək öhdəliyimizdə əsas rol oynayır.

Fəal dinləmə komponentimizi bundan sonra da dəstəkləmək üçün şirkətimizdə bütün əməkdaşların mövcud problemlərlə bağlı birbaşa rəhbərliyə müraciət etməsinə imkan verən "Açıq qapı" siyasəti tətbiq etdik. Şəffaflığa və açıqlığa inanırıq və bütün hallarda ən yüksək davranış standartlarına riayət etməyə çalışırıq. Buna görə də, əməkdaşlarımızın çətin şəraitdə onlara dəstək ola biləcək məsul şəxslərə çıxışının olması bizim üçün çox vacibdir.

Bununla belə, əməkdaşlarımız çətinliklərlə qarşılaşdıqda yalnız açıq ünsiyyət mədəniyyətini müdafiə etmirik, həm də rəhbərliyimizi tabeliyində olanlarla təkbətək görüşlər keçirməyə və onların liderliyi və komanda mühiti barədə fəal şəkildə rəy istəməyə təşviq edirik.

# İnsanlara sərmayə: İxtisaslı kadr strategiyamız

Əməkdaşlar komandamız Azercell-ə sadiq olduğundan, Azercell də hər kəsin böyümək və inkişaf etmək imkanına malik olduğu məhsuldar iş mühiti yaratmağa çalışır. Əməkdaşlarımız qarşısında öhdəliyimizi aşağı dövriyyə nisbəti və 10 illik yüksək orta vəzifə müddəti, eləcə də uzun tətildən sonra işə geri qayıtmanın yüksək faizi sübut edir.

Ölkənin ən cəlbedici işəgötürənlərindən biri olmaq məqsədimizə çatmaq üçün əməkdaşların motivasiyasına və yüksək iş məmnuniyyətinə töhfə verən bir mühit yaratmağın vacib olduğunu qəbul edirik. Şirkətimizi irəliyə aparan insanlara təşəkkür etmək üçün daim onlara və karyera yüksəlişlərinə investisiya yatırmağa çalışırıq. Fərdi yanaşma tətbiq etməklə, təcrübə təlimi və ya formal təhsili əhatə edə biləcək peşəkar inkişaf planları hazırlayaraq bacarıq və bilik boşluqlarını doldurmağı hədəfləyirik. Azercell Akademiyası və üçüncü şəxs təlim təminatçıları vasitəsilə şəxsi və peşəkar bacarıqları əhatə edən geniş çeşiddə kurslar – İngilis dili biliyi, layihə idarəetmə, kodlaşdırma, Dayanıqlı inkişaf və s. üzrə kurslar təklif edirik.

Biz fəaliyyətimizin bütün sahələrində fərdlərin uğurunu və yüksəlişini təşviq etmək öhdəliyinə olduqca sadiqik. Sənayemizdə mükəmməllik və tərəqqi arzusu, korporativ mədəniyyətimizə və İK yanaşmamıza kök salmış, vakant vəzifələri doldurmaq üçün daxili vəzifə artımının təşviqinə sadiqliyimizi vurğulamışdır. Korporativ mədəniyyətimizdə xüsusən də şirkət daxilində bir vəzifədən digərinə keçidə can atan əməkdaşlar üçün ixtisasartırma proqramları, varisliyin dəqiq planlaşdırılması və liderliyin inkişafı və yumşaq bacarıqların (soft skills) inkişafını əhatə edən xüsusi təlim proqramları kimi təşəbbüslər vasitəsilə işçi qüvvəmizin peşəkar inkişafının asanlaşdırılmasına xüsusi diqqət ayrılır. Bu çoxşaxəli yanaşma əməkdaşlarımızın peşəkar və fərdi inkişafına davamlı sərmayə yatırdığımızı təsdiqləyir.

## Daxili təcrübə proqramları

Başqa bir vəzifədə və ya departamentdə karyerasını davam etdirmək və ya bacarıqlarını sınamaq üçün yeni imkanlar axtaran Azercell əməkdaşları üçün daxili proqramlar həyata keçiririk. Bu proqram çərçivəsində əməkdaşlar praktiki təlim keçir və müvafiq departamentdə təcrübəçi kimi öz töhfələrini verirlər. 2023-cü ildə 15 əməkdaş həftədə 2 gün təcrübə keçməklə 4 ay davam edəcək proqrama qoşuldu. Bu strukturlaşdırılmış yanaşma müvafiq təcrübəsi və ya bacarığı olmayan şəxslərə normal iş saatları ərzində müxtəlif imkanları öyrənmək və yeni bacarıqlar əldə etmək üçün təhlükəsiz mühit təmin edir.

Bu təşəbbüs təkcə fərdi peşəkar inkişafı təşviq etmir, həm də işimizə fayda gətirir. Bu, əməkdaşlara təşkilatın fəaliyyətinin müxtəlif aspektlərini başa düşməyə imkan verməklə, sinerji və səmərəliliyin artırılmasına kömək edir. Bu da, öz növbəsində, çarpaz funksional bilik bazasının yaradılmasına, şirkət daxilində əməkdaşlıq və səmərəliliyin artırılmasına kömək edir.



Strategiyamızın insanlara sərmayə yatırmaq komponenti çərçivəsində, biz işçi qüvvəmizin hər bir üzvünün müntəzəm olaraq fəaliyyət qiymətləndirməsindən keçdiyi davamlı təkmilləşdirmə mədəniyyətini və inkişaf imkanlarını dəstəkləməyə çalışırıq. Bu sistematik qiymətləndirmə prosesi komanda üzvlərimizi peşəkar inkişaflarında gücləndirmək və dəstəkləmək, onlara davamlı rəy və doğru müəyyən edilmiş hədəflər vermək üçün işlənib-hazırlanmışdır.

Son 3 ildə əməkdaşlarımızın 100%-i üçün karyera inkişafının təhlilini uğurla həyata keçirmişik. Bu strukturlaşdırılmış yanaşma komandalarımızın məqsədlərinin şirkətimizin ümumi strategiyasına uyğun olmasını təmin edir və ümumi missiyaya nail olmaq yolunda kollektiv səyləri təşviq edir. O, həmçinin əməkdaşlarımızın şirkətin uğurunu təşviq etməkdə öz rollarını aydın şəkildə dərk etməsinə və töhfələrinə görə layiqincə tanınması və mükafatlandırılmasına imkan verir.

Fəaliyyət səmərəliliyini daha da stimullaşdırmaq üçün Azercell-in fəaliyyət səmərəliliyi ilə bağlı bonusları özündə birləşdirən mükafatlandırma sistemindən istifadə edirik. Bu, təkcə fərdi nailiyyətlərin tanınması deyil, həm də təşkilatımızın sadiq əməkdaşlarının səylərini tanımaq və qiymətləndirmək öhdəliyini gücləndirir.

Effektiv və strukturlaşdırılmış İR sisteminin əsas rolunu qəbul etməklə, biz həmişə əməkdaşlarımıza ən yüksək keyfiyyətli xidmət göstərməyə imkan verən sistemləri inteqrasiya etməyə çalışırıq. Mürəkkəb bir sistemi tətbiq etməklə və işlək vəziyyətdə saxlamaqla, biz əməkdaşlarımızın ehtiyac və gözləntilərinə təkcə cavab verən yox, həm də bu ehtiyac və gözləntilərdən yüksək bir mühit yaratmağa çalışırıq. Bu öhdəlik çərçivəsində bu yaxınlarda SAP "SuccessFactors" İR proqram təminatının tətbiqinə başlamışıq. Bu strateji addım təşkilatımızda əməkdaşların tam xidmət dövrünün idarə edilməsini optimallaşdırmaq və təkmilləşdirmək məqsədi daşıyır. Bu proqram təminatı geniş funksional imkanları, o cümlədən, lakin bunlarla məhdudlaşmayaraq, əməkdaşların məlumatlarına çıxış, özünəxidmət, əməkhaqqının idarə edilməsi, iş vaxtının izlənilməsi, müavinətlərin idarə edilməsi, bilet və problemlərin həll edilməsi, sağlamlıq və rifah təşəbbüsləri, qlobal məlumatların mühafizəsi və məxfiliyin qorunması, eləcə də müxtəliflik və inklüzivlik tədbirlərini əhatə edir.

Bu təşəbbüsün gözlənilən nəticəsi 2025-ci ilə qədər tamamlanması planlaşdırılan tam inteqrasiya olunmuş bir sistemdir. Qabaqcıl texnologiyaya qoyulan bu sərmayə, işçi qüvvəmizin dəyişən ehtiyaclarını ödəmək və əməkdaşların öz vəzifələrini maksimum səmərəliliklə yerinə yetirə biləcəkləri bir mühit yaratmaq öhdəliyimizi vurğulayır.

Bu səy, texnoloji infrastrukturumuzun dinamik iş yerimizin dəyişən tələblərinə tam cavab verməsini təmin etməklə, aldığımız dəyərli rəylərə cavab vermək və onlara uyğun tədbirlər görmək üçün fəal yanaşmamızın bir nümunəsidir.

## VM Müxtəliflik, Ədalət və İnklüzivliyin müdafiəsi

Tarixən kişilərin üstünlük təşkil etdiyi bir sektorda fəaliyyət göstərən bir şirkət olaraq, müxtəlifliyi təşviq etmək və qadınların, xüsusən də üst səviyyə rəhbərlik heyətimizdə qadınların hüquq və imkanlarını genişləndirmək öhdəliyinə sadiqliyimizlə qürur duyuruq. Maraqlıdır ki, qadın Prezidentin rəhbərlik etdiyi üst səviyyə rəhbərlik heyətimizin 31%-ni uğur qazanmış qadınlar təşkil edir. Belə düşünülmüş tərkib Azercell-in strateji qərar qəbul siyasəti və proseslərinin inklüzivliyin təşviqinə sadiqliyimizi əks etdirən müxtəlif dünyagörüşləri ilə müəyyən olunmasını təmin edir.

Rəhbərlik səviyyəsində təmsilçiliklə yanaşı, idarəetmə strukturumuz Azercell-də qadın əməkdaşların karyera yüksəlişinin aydın trayektoriyasını təklif etməklə onların əhəmiyyətli tanınması və təmsilçiliyini təmin etmək üçün nəzərdə tutulmuşdur. Müxtəliflik və inklüzivlik öhdəliyimiz əməkdaşların işə qəbulu və təlimindən tutmuş davamlı inkişafa və bizimlə işlədikləri müddətdə səmərəliliyin qiymətləndirilməsinə qədər hər mərhələdə izlənilə bilər.

Öhdəliyə sadiqliyimiz iş yerimizdən kənara çıxır və bütün ölkədə gənc qadınların təhsili və inkişafına investisiya yatırmaq öhdəliyini əhatə edir. Təhsil təşəbbüslərini dəstəkləyərək və davamlı öyrənmə imkanları təmin edərək, onların seçdikləri sahələrdə üstün olmalarını təmin etməyə çalışırıq. Bu investisiyalar nəinki daha müxtəlif kadr ehtiyatlarına töhfə verir, həm də sabahın liderlərinin yetişdirilməsində mühüm rol oynayır və bununla da daha əhatəli və ədalətli cəmiyyətin yaradılmasına kömək edir.

## 2023-cü ildə əlilliyi olan işçilərin faizi, yaş qrupuna görə bölgü

| | |
|---|---|
| 30 yaşdan kiçik | 25% |
| 30-50 yaş arası | 62,5% |
| 50 yaşdan böyük | 12,5% |

## VM İşə qəbul

Müxtəlifliyi və inklüzivliyi təşviq etmək öhdəliyimizə uyğun olaraq, namizədlərin geniş spektrini cəlb etmək üçün çoxşaxəli yanaşmadan istifadə edirik. Biz geniş reklam və karyera yarmarkalarında iştirak etməklə iş imkanlarımızı fəal şəkildə təbliğ edir və müxtəlif ixtisaslı kadr fondları ilə əlaqələrimizi genişləndirməyi hədəfləyirik. Qadınların İT vəzifələrində az təmsil olunmasına xüsusi diqqət yetirməklə, biz onların bu vəzifələrə müraciət etməsini təşviq etmək üçün məqsədyönlü tədbirlər həyata keçirmiş və bununla da texnologiyalar sektorunda daha çox gender müxtəlifliyinə töhfə vermişik.

Tələbə Təqaüd proqramımız STEM sahəsində qadınların karyera yüksəlişini dəstəkləmək üçün təməl daş kimi xidmət edir. Bu təşəbbüs İnformasiya texnologiyaları, Kibertəhlükəsizlik, Biznes analitikası, Verilənlər elmi (Data Science) və Marketinq sahələrində ixtisaslaşmış tələbələrə maliyyə təqaüdləri və təcrübə təklif edir.

İnklüzivlik öhdəliyimizi vurğulayaraq, əlilliyi olan şəxsləri fəal şəkildə işə cəlb edirik, onlara iş, inkişaf və təşkilatımıza mənalı töhfə vermək üçün bərabər imkanlar təqdim edirik. İşə qəbul prosesimiz namizədlərin ədalətli və qərəzsiz qiymətləndirilməsini təşviq edən obyektiv qiymətləndirilmə mexanizmlərindən istifadə edilməklə hazırlanmışdır.

İşə qəbul prosesində yaşı, cinsiyyəti, ailə vəziyyəti, dini, irqi, etnik mənşəyi, milliyyəti, fiziki qüsurları və cinsi oriyentasiyasından asılı olmayaraq hər kəsə hörmət etmək kimi əsas prinsipə riayət edirik. Ədalət və inklüzivliyə bu sadiqliyimiz korporativ dəyərlərimizin ayrılmaz hissəsidir və işçi qüvvəmizin fəaliyyət göstərdiyimiz dünyanın müxtəlifliyini əks etdirməsini təmin edir.

## VM Bərabər əməkhaqqı və Əlverişli iş saatları

Gender bərabərliyi prinsiplərinə riayət etmək məqsədilə Azercell qadınların oxşar bacarıq, təcrübə və ixtisas tələb edən bərabər dəyərli işlərə görə bərabər maaş almasına yönəlmiş siyasət tətbiq etməkdədir. Bu prinsipə sadiqliyimiz, kişilər və qadınlar üçün mümkün olan əməkhaqqı fərqlərini aradan qaldırmağa yönəlmiş əməkhaqqı strukturlarımızın müntəzəm olaraq nəzərdən keçirilməsi ilə daha da gücləndirilir.

İşçi qüvvəmizin, xüsusən də qulluq vəzifələrini yerinə yetirən qadınların müxtəlif ehtiyaclarını tanımaqla, əlverişli iş şəraiti təmin etməyə çalışırıq. Buraya valideyn məzuniyyəti, əlverişli iş saatları və bütün əməkdaşlar üçün məsafədən iş imkanları daxildir. Bu cür əlverişlilik təklif etməklə biz əməkdaşların, o cümlədən qadınların öz peşəkar və şəxsi məsuliyyətlərini effektiv şəkildə tarazlaya bildikləri mühit yaratmağı, ümumi rifahı və iş-həyat balansını dəstəkləyən iş yeri mədəniyyətini inkişaf etdirməyi hədəfləyirik. Bu öhdəlik inklüziv və dəstəkləyici iş mühiti haqqında vizyonumuza uyğundur.

Müxtəliflik, Ədalət və İnklüzivlik (MBİ) axtarışımızda daha inklüziv bir mühit yaratmaq üçün strukturlaşdırılmış bazaların və təşkilati təşəbbüslərin yaradılmasına üstünlük veririk. Strateji olaraq proqramlar hazırlayıb həyata keçirərkən, müxtəlifliyi və bərabərliyi fəal şəkildə təşviq edən möhkəm bir təməl yaratmağa çalışırıq. Mövcud tərəqqinin sistematik olaraq izlənildiyi və ölçüldüyünü qeyd etmək xüsusilə vacibdir ki, bu da təşəbbüslərimizi məqsədlərimizlə daha yaxşı uzlaşması üçün uyğunlaşdırmağa və inkişaf etdirməyə imkan verir. Müntəzəm qiymətləndirmə, fəaliyyətimizin hər bir fərdin özünəməxsus perspektivləri və istedadlarını təqdim etmək üçün dəyərli hiss etdiyi və imkanlarının genişləndirildiyi inklüziv iş yerinin təşviqinə effektiv şəkildə töhfə verməsini təmin edir.



**Baza əməkhaqqında 1:1 qadın-kişi nisbəti**

## Rifahın təmin edilməsi

Azercell-in hər bir əməkdaşının rifahı bizim əsas prioritetimizdir və sarsılmaz öhdəliyimiz Əməyin mühafizəsi və təhlükəsizliyi üzrə kompleks siyasət və protokollarının hazırlanmasında əks olunur. Bu tədbirlər Azərbaycan qanunvericiliyinə və qabaqcıl beynəlxalq təcrübəyə uyğundur, ISO 45001:2018 sertifikatı ilə təsdiqlənir ki, bu da Əməyin mühafizəsi və təhlükəsizliyinin idarəetmə təcrübəsinin davamlı olaraq nəzərdən keçirilməsi və təkmilləşdirilməsini təmin edir.

Qanunvericiliyə riayət etməklə yanaşı, bütün əməkşdaşlar və onların ailə üzvləri üçün könüllü tibbi sığorta təklif etməklə əməkdaşların rifahı ilə bağlı öhdəliyimizi genişləndiririk. Dəstəyi genişləndirmək üçün davamlı səylərimizin bir hissəsi olaraq, yaxın gələcəkdə güzəştli tibbi sığorta tariflərini əməkdaşların valideynlərinə və yetkinlik yaşına çatmış övladlarına qədər genişləndirməyi planlaşdırırıq. Sağlamlığı və təhlükəsizliyi ön planda saxlamaq üçün il ərzində qanvermə aksiyası, qanda şəkər səviyyəsinin ölçülməsi, görmə testi və təhlükəsiz sürücülük kimi sahələri əhatə edən müxtəlif kampaniyalar və vebinarlar keçiririk. YAMMER proqramımız vizual xatırlatmalar və əməkdaşların Əməyin mühafizəsi və təhlükəsizliyinə dair bu mühüm mövzulara cəlb olunması üçün platforma rolunu oynayır.

Əməyin mühafizəsi və təhlükəsizliyi üzrə davam edən təlim proqramlarımız əməkdaşları öz və həmkarlarının təhlükəsizliyini prioritet etmələri üçün lazım olan bacarıq və biliklərlə təmin edir. Standart təlim kurslarımıza bir çox mövzu daxildir, bunlardan bəziləri Şəkil 20-də göstərilmişdir.

## SƏTƏM üzrə standart təlim kursları

- Əməyin mühafizəsi və texniki təhlükəsizlik
- Hündürlükdə iş
- Elektrik və istilik qurğularının istismarı zamanı təhlükəsizlik tədbirləri
- Qaldırıcı platforma operatoru üçün təlim
- İlk yardım və Ürək-ağciyər Reanimasiyası (CPR)
- Yanğınsöndürmənin əsasları
- Təhlükəsiz sürücülük

Qadın sağlamlığını dəstəkləmək öhdəliyimizi nümayiş etdirərək, müxtəlif tibb şirkətlərinin mütəxəssis həkimlərindən qadınlara təsir göstərən məsələlərə xüsusi diqqət yetirməklə davamlı olaraq konsultasiyalar təklif edirik. Azercell Akademiyası platforması vasitəsilə qadınların sağlamlığı ilə bağlı mövzulara həsr olunmuş bir sıra vebinarlar keçirdik. Təcrübəli psixoloqlar tərəfindən aparılan bu seanslar cəmiyyətimizdə dəyərli məlumatların yayılmasına və qadın sağlamlığı problemləri barədə məlumatlılığın artırılmasına kömək edir.

Əməkdaşlarımızın, xüsusən də ön ofisdə işləyənlərin və müştərilərlə birbaşa təmasda olanların üzləşdiyi mümkün təzyiqi nəzərə alaraq, onların rifahını prioritet etmişik. Həmkarlarımızı dəstəkləmək üçün xüsusi stres idarəetmə və emosional zəka təlimlərinə çıxış imkanı veririk. Mütəxəssislər və psixoloqlar tərəfindən aparılan bu seansların məqsədi işçi heyətimizi onların vəzifələri üçün səciyyəvi olan problemləri idarə etmək və həll etmək üçün dəyərli alətlər və strategiyalarla təchiz etmək, daha sağlam və davamlı iş mühiti yaratmağa kömək etməkdir.

VM

# Azercell-in vahid icması: Korporativ Sosial Məsuliyyət

Vahid icma Azercell-in kadr idarəçiliyi strategiyasının əsas komponentlərindən biri kimi müəyyən edilib, çünki biz inanırıq ki, kommunikasiya və rəqəmsal texnologiyalara çıxış yolu ilə insanların həyatını yaxşılığa doğru dəyişmək üçün bütün imkanlarımız var. Biz innovasiyalar vasitəsilə təhsili təşviq etməyə, sektorumuzda gender bərabərliyi və liderlik səviyyəsini yüksəltməyə, eləcə də insanların harada olmasından və nə qədər uzaq olmasından asılı olmayaraq, həyatlarını yaxşılaşdırmaq üçün imkanlar yaratmağa çalışırıq.

Biz bütün Azərbaycanda insanlar arasında bağlantı qurmaq vəzifəmizin vacibliyi və əhəmiyyətini başa düşürük və xidmətlər göstərmək üçün özünəməxsus imkanımız var — bu imkan həqiqi xeyir qüvvəsinə çevrilə bilər. “Bağlantını asanlaşdırmaq və bütün insanların həyat imkanlarını genişləndirmək” məqsədimiz bu sahədəki fəaliyyətimizi və strategiyamızı vurğulayır.



Cəmiyyətdə iştirakımızda Korporativ Sosial Məsuliyyət (KSM) strategiyamızı rəhbər tuturuq. KSM strategiyamızın məqsədi işimizi gücləndirmək və cəmiyyətdə yaratdığımız dəyəri artırmaqdır. Korporativ Sosial Məsuliyyət DNT-mizə həkk olunmuşdur və inkişaf edən və rəqəmsal cəhətdən inklüziv bir cəmiyyət yaratmaq vizyonumuzu həyata keçirməyimizə kömək edir. KSM strategiyamız, strateji istiqamətlərimizə uyğun təşəbbüslər seçməklə cəmiyyətdə iştirakımıza sistemli və mütəşəkkil bir şəkildə yanaşmağımıza imkan verən 3 əsas sahəni müəyyənləşdirir.

## Sağlam və təhlükəsiz cəmiyyət

Bu strateji komponent, səhiyyə sahəsində İnformasiya və kommunikasiya texnologiyalarından (İKT) istifadə etməklə və kompleks təhlükəsizlik həllərinin tətbiqi yolu ilə daha sağlam cəmiyyət yaratmaq öhdəliyimiz üçün əsas rol oynayır. Xüsusilə, uşaqların onlayn təhlükəsizliyini gücləndirməyə xüsusi diqqət yetiririk.

Bu istiqamətin digər vacib komponenti narkotik və alkoqol asılılığı, eləcə də gənc qızların erkən nikahları ilə bağlı sosial problemlərin həllində iştirakımızdır. Bu strateji istiqamət çərçivəsində bu məsələlər barədə məlumatlılığın artırılması üçün Azərbaycan Cüdo Federasiyası ilə əməkdaşlıq etmişik. Bu səylər təkcə cəmiyyətin rifahına töhfə vermir, həm də Azercell və fəaliyyət göstərdiyimiz icmalar arasında etimadı artırır.




## Bağlantısı olmayanlar üçün bağlantı

KSM strategiyamız ölkənin ucqar bölgələrində, eləcə də təbii fəlakət zonalarında yaşayan icmaları internet bağlantısı ilə təmin etməyi hədəfləyir. Bu, şəbəkəmizin genişlənməsinin inklüziv olmasını və Azercell-in cəmiyyətin həyatını yaxşılaşdıran xidmətlər vasitəsilə sosial inkişafı fəal şəkildə dəstəkləməsini təmin edir.

Biz bütün Azərbaycanda insanlar arasında bağlantı qurmaq vəzifəmizin vacibliyi və əhəmiyyətini başa düşürük və xidmətlər göstərmək üçün özünəməxsus imkanımız var — bu imkan həqiqi xeyir qüvvəsinə çevrilə bilər. Bu mövzuda fəaliyyətimiz “bağlantını asanlaşdırmaq və bütün insanların həyat imkanlarını genişləndirmək” məqsədimizi vurğulayır. Rəqəmsal inklüziv dünyaya doğru irəliləmək üçün biz Azercell-in cəmiyyətimizin rəqəmsal transformasiya ilə üzləşdiyi bir vaxtda cəmiyyətin ən həssas qruplarını bir araya gətirməsini təmin etmək istəyirik. Bu, cəmiyyətin bütün qruplarına daha inklüziv və daha sağlam həyatı təşviq etməklə təhsilə çıxış imkanı verməyimizi mümkün edir. Cəmiyyətin bütün qruplarını bağlantı ilə təmin etməyimiz həm də insanlara istənilən yerdə yaşamaq və işləmək üçün daha çox imkan yaratmağımıza kömək edir.

## Gələcək üçün Təhsil

KSM strategiyasının sonuncu komponenti İKT vasitəsilə təhsili təşviq və təmin etməkdir. Bir çox layihəmizə təhsil aspektlərini daxil etmişik; bunlara Autizm Portalına və Rəqəmsal Kitabxanamıza töhfəmizi misal göstərmək olar. Təhsil vasitəsilə biz həssas qrupların imkanlarını genişləndirmək, xüsusilə də İKT vasitəsilə qadınların imkanlarının genişləndirilməsi və dəstəklənməsinə diqqət ayırmaq istəyirik.

Biz innovasiyalar vasitəsilə təhsili təşviq etməyə, sektorumuzda gender bərabərliyi və liderlik səviyyəsini yüksəltməyə, eləcə də insanların harada olmasından və nə qədər uzaq olmasından asılı olmayaraq, həyatlarını yaxşılaşdırmaq üçün imkanlar yaratmağa çalışırıq.

## KSM məqsədlərimizə çatılması

KSM strategiyamız cəmiyyətdə müsbət bir iz qoymağı hədəfləyir və biz təşəbbüslərimizi əsas işimizlə uyğunlaşdırmağın uzunmüddətli təsir göstərəcəyinə inanırıq. Bu məqsədə çatmaq üçün strateji olaraq fəaliyyətimizə KSM tətbiq edirik və təkcə cəmiyyətə fayda gətirməyən, həm də uzunmüddətli dayanıqlılıq üçün iş hədəflərimizə uyğun təşəbbüslər həyata keçiririk. Bu təşəbbüslər çərçivəsində inkişaf edən tərəfdaşlıq münasibətlərimiz Azercell-in təsir dairəsini və imkanlarını xeyli genişləndirir. Bu cür əməkdaşlıqlar xüsusilə dəyərlidir, çünki təkbaşına əldə etməyimizin daha çətin ola biləcəyi məqsədlərə çatmağımıza imkan verir.

Məhsul və xidmətlərimizin daha geniş auditoriyaya təsir etmək potensialına malik olduğunu dərk edirik. Təkliflərimiz vasitəsilə bütün insan qruplarının həyat keyfiyyətini yaxşılaşdırmağa çalışırıq. Bu transformativ qüvvə, cəmiyyətin yaxşılaşdırılması üçün imkanlarımızdan istifadə etmək öhdəliyimizi vurğulayır. Nəticə etibarilə, KSM-nin biznes modelimizə inteqrasiyasını müsbət dəyişikliklər yaratmaq və daha dayanıqlı və sosial məsuliyyətli bir gələcəyi təşviq etmək üçün güclü vasitə kimi görürük.




## Audiokitab layihəsi – Azercell-in Rəqəmsal Kitabxanası

Son bir neçə ildə biz Azərbaycan ədəbiyyatının mühüm əsərlərini nümayiş etdirən rəqəmsal kitabxananın yaradılmasına yönəlmiş mədəni dayanıqlılıq təşəbbüsü istiqamətinə səylər göstərmişik. Əsas məqsəd bu ədəbi xəzinələri rəqəmsallaşdırma prosesi vasitəsilə beynəlxalq arenaya çıxarmaqdır. Bu təşəbbüsün əsas komponenti olan Audiokitab Layihəmizə Azərbaycanın görkəmli yazıçı və şairlərinin yazdığı 50-dən çox əsərin "Bookmate" platformasında yerləşdirilməsi daxildir. Bu ədəbi əsərlər indi həm audiokitab formatlarında, həm də audio pleyerlərdə mövcuddur.

Bu təşəbbüsün çoxdilli aspektindən istifadə edərək Azərbaycan ədəbiyyatının mahiyyətini türk, rus və ingilis dilləri də daxil olmaqla 4 dildə başa salmağa çalışdıq. Biz qətiyyətlə inanırıq ki, bu layihə Azərbaycan ədəbiyyatının şah əsərlərinin gələcək nəsillərə ötürülməsi və beynəlxalq oxucu auditoriyasının genişləndirilməsi vasitəsi kimi xidmət edir. Rəqəmsal kitabxana təkcə Azərbaycanın mədəni irsini qoruyub saxlamır, həm də onun ədəbi töhfəsinin qlobal miqyasda daha yaxşı tanınmasına kömək edir. Azercell bu layihə vasitəsilə bu ədəbi əsərləri bütün dünyada tamaşaçılara təqdim etməklə Azərbaycanın mədəni irsinə töhfə verməyə və mədəniyyətlərarası anlaşmanı təşviq etməyə çalışır.

## Qadınlar və uşaqlar üçün qaynar xətlər

2010-cu ildən Azərbaycanda həssas əhali qrupları üçün qaynar xətlərin inkişafı üzrə "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyi ilə əməkdaşlıq edirik. 2010-cu ildə YUNİSEF-in Azərbaycanda dəstəyi və "Ümidli Gələcək" tərəfindən yaradılan Uşaq Qaynar Xəttimiz 18 yaşınadək uşaqlara gecə-gündüz dəstək təklif edir, həm gündəlik mövzuları, həm də daha ciddi uşaq istismarı və zorbalıq (bullinq) məsələlərini əhatə edir. 2010-cu ildən bəri uşaqları ilə bağlı problemləri olan minlərlə valideyn qaynar xəttə müraciət edir. 2022-ci ildə "Uşaq Qaynar Xətti"nə edilən 5000-dən çox müraciətin 10%-i uşaq istismarı ilə əlaqəli idi. Son illərdə olduğu kimi, müraciətin əsas səbəbləri psixoloji və fiziki istismar idi, lakin əvvəlki illərdən fərqli olaraq, kiberzorbalıqla (kiberbullinqlə) əlaqəli müraciətlər də qeydə alınıb. Səbəb uşaqlar və yeniyetmələr arasında internetdən istifadənin daim artan tendensiyasıdır.




Bu göstəriciləri nəzərə alaraq, Azercell ictimaiyyətin İnternetdə təhlükəsiz və məsuliyyətli davranış barədə maarifləndirilməsinə və uşaqların kibertəhlükələrdən qorunmasına xüsusi diqqət yetirməklə bir sıra tədbirlər təşkil etmək qərarına gəlib.

Keçən əsrdə qadınlar üçün bərabərliyə nail olmaqda irəliləyişlər görsək də, kədərli reallıq budur ki, gender əsaslı zorakılıq geniş yayılmış qlobal epidemiya olaraq qalır. 2022-ci ilin avqust ayında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və "Ümidli Gələcək" Sosial Təşəbbüslər İctimai Birliyinin dəstəyi ilə "Qadın Qaynar Xətti" xidmətini işə saldıq. "Qadın Qaynar Xətti" lisenziyalı psixoloqlar, sosial işçilər və hüquqşünaslar qrupu tərəfindən idarə olunur və çətin həyat şəraitində olan qız və qadınlara gecə-gündüz məsləhət və emosional dəstək verir. Bu günə qədər 4100-dən çox qadın, əsasən psixoloji və fiziki zorakılıq, ailə problemləri və ya boşanma səbəbiylə xidmətimizdən faydalanmışdır.

## “Onlayn Autizm Portalı”

Azercell, “Birgə və Sağlam” İctimai Birliyinin “Onlayn Autizm Portalı” vasitəsilə müsbət töhfə verib. İnvestisiya sayəsində QHT-lərə onlayn təklifini modernləşdirməyə və inkişaf etdirməyə kömək etdik. Bu maliyyələşdirmə Portalın inkişafını davam etdirməyə, təhsil resursları təmin etməyə və onun kontentini zənginləşdirməyə imkan verib. Portalın məqsədi autizmli uşaqların valideynlərini etibarlı təhsil məlumatları və kontent, o cümlədən tibb mütəxəssislərinin müntəzəm yazıları və videoları ilə təmin etməkdir. Azercell-in layihəyə dəstəyi autizmin müxtəlif aspektlərinə dair elmi cəhətdən tanınmış məlumat toplusunun, o cümlədən Türkiyənin Tohum Autizm Fondu tərəfindən Azərbaycan dilinə tərcümə edilmiş 10 cildlik kitabının rəqəmsallaşdırılması və nəşrinə imkan yaradıb. Modernləşdirmə həmçinin istifadəçilərə real vaxt rejimində iştiraka, autizm, reabilitasiya prosesləri və əlçatan olan digər sosial yardımlar haqqında məlumat əldə etməyə imkan verən “canlı söhbət” funksiyasının əlavə edilməsini də əhatə edirdi. Azercell Azərbaycanda autizm problemi ilə bağlı məlumatlılığın və anlayışın artırılmasına kömək edən bu təşəbbüsün bir hissəsi olmaqdan qürur duyur.

## Atletizmin təbliği

İdman hər bir cəmiyyətin mühüm elementidir və inanırıq ki, KSM məqsədlərimizə nail olmaqda və Azercell-in təsir dairəsini və təsirini genişləndirməkdə bizə kömək edəcək dəyərli üsuldur.

Azercell gənclər, xüsusilə də gənc qadınlar arasında idman və mədəniyyətin təbliği məqsədilə Azərbaycan Cüdo Federasiyası (ACF) ilə sıx əməkdaşlıq edir. Bu əməkdaşlıq qadınların imkanlarının genişləndirilməsinə kömək edir və erkən nikah, narkomaniya və zorakılıq kimi problemlərə toxunur. ACF ilə bu əməkdaşlıq sayəsində “Söz verirəm” kampaniyasına başladıq. Bu kampaniya bu gün gənclər arasında yayılmış zorbalıq (bullinq) kimi problemlərə toxunmaqla idmana marağı artırmaq və sağlam həyat tərzini təbliğ etmək məqsədi daşıyır. Bu layihənin məqsədi həm uşaqlara, həm də böyüklərə zorbalığın (bullinqin) zərərli təsirləri barədə məlumat verməkdir. Təhsil fəaliyyətləri cüdo təlim sessiyalarına inteqrasiya olunur. Bu sessiyaları başa vuran uşaqlar, uşaqları zorbalığa (bullinqə) qarşı mübarizə hərəkatı ətrafında birləşdirməyə yönəlmiş sertifikatlar və bilərziklər alacaqlar.




Azercell həmçinin 2023-cü ildə Bakı Marafonuna sponsorluq edib. Marafon “Küləyə qalib gəl” şüarı altında keçirilib və bütün dünyadan 19500 iştirakçını bir araya gətirib. Yarış məsafəsi 21 km idi və Azercell rəqəmsal xronometri təqdim edirdi. İştirakçıların yaxa nişanlarına nəticələrin maksimum dəqiqliyini təmin edən və dərhal məlumat verən nömrələri olan xüsusi mikroçiplər əlavə edildi. Azercell bu tədbirə 2017-ci ildən, sağlam həyat tərzinin təbliği məqsədilə sponsorluq edir. Biz həmçinin yarışda qalib gələnlər və ikinci yeri tutanlar üçün mobil telefonlar, şəbəkə tarifləri və digər xüsusi hədiyyələrdən ibarət mükafatlara da sponsorluq etmişik. Yarışda iştirak edən gənc tələbələrə xüsusi diqqət yetirilib və onlardan ikisi mükafat qazanıb.




## Beynəlxalq İnformatika Olimpiadası

2017-ci ildən məktəblilərimizin informatika üzrə beynəlxalq olimpiadalara hazırlanması prosesi "Azercell Telekom" MMC-nin Elm və Təhsil Nazirliyi (ETN) ilə tərəfdaşlığı çərçivəsində həyata keçirilir. Bu müddət ərzində məktəblilərimiz ölkəmizi müxtəlif miqyaslı beynəlxalq olimpiadalarda uğurla təmsil etmiş və ümumilikdə 54 medal, o cümlədən 3 qızıl, 14 gümüş və 37 bürünc medal qazanmışlar.

## Təbliğat və Sponsorluq

Biz qadınların imkanlarının genişləndirilməsinə yönəlmiş müxtəlif tədbirlərə sponsorluq etməklə və onlarda iştirak etməklə daha geniş biznes icması ilə fəal şəkildə əlaqələr qururuq. Maraqlıdır ki, iştirakımıza ölkə daxilində 500-dən çox iş qadınının iştirak etdiyi mühüm tədbir olan "SHE Conference" konfransına dəstək də daxildir. "ÖZ HƏYATINA SAHİB OL" ("OWN YOUR LIFE") şüarı altında keçirilən konfransda Azercell-in üst səviyyə rəhbərliyinin nümayəndələri də çıxış ediblər. Konfransın əsas məqsədləri qadınların liderlik və biznes keyfiyyətlərini gücləndirmək, netvorkinq imkanlarını artırmaq və iştirakçılar arasında təcrübə mübadiləsini təşviq etmək idi.

Sosial məsuliyyətlə bağlı uzunmüddətli öhdəliyimiz çərçivəsində Azercell təkcə hesabat ili ərzində sosialyönümlü layihələrə 30 milyon AZN-dən çox vəsait ayırıb. Qadınların hüquqları və inkişafı hələ də diqqət mərkəzindədir və çoxsaylı layihələr qadınların imkanlarının təhsil yolu ilə genişləndirilməsinə, habelə karyera imkanlarının genişləndirilməsinə yönəlmişdir.

Bu çoxşaxəli yanaşma Azercell-in təkcə öz sıralarında qadınları dəstəkləmək deyil, həm də qadınların daha geniş ictimai tərəqqisinə töhfə verməklə bu öhdəliyə sadiqliyini vurğulayır. Tədbirlərdə fəal iştirak etməklə və səmərəli layihələr həyata keçirməklə, həm şirkət daxilində, həm də xaricində qadınların həyatına müsbət və inklüziv təsir göstərməyə çalışırıq.






## “Her Improvement” layihəsi

STEM sahəsində qadınları dəstəkləmək öhdəliyimizin bir nümunəsi, “FemTech” MMC ilə birlikdə 2022-ci ildə başladılan bir inkişaf proqramı olan “Her Improvement” (Onun inkişafı) layihəsidir. Texnologiya və biznes sahəsində qadın mütəxəssislərin sayının artmasına təkan verən bu təşəbbüs ilk mərhələsini 2023-cü ilin yanvarında uğurla başa vurdu.

Proqramda iştirakçılar qismən Azercell əməkdaşlarının köməyi ilə kompleks təlim keçmək imkanı əldə ediblər. Təlim rəqəmsal məhsullar, Blokçeyn, NFT, “ağıllı şəhər/kənd”, Müasir texnologiyalar Web 3 və müasir dünyada startapların rolu da daxil olmaqla bir sıra mövzuları əhatə edib. İştirakçılar həm yerli, həm də beynəlxalq bazarlarda birbaşa təcrübələrini bölüşən peşəkar mentorların, İT mütəxəssislərinin və startap təsisçilərinin təcrübəsindən istifadə edərək proqramlaşdırma seminarlarında fəal iştirak ediblər.

“Her Improvement” layihəsi qadınların STEM sahələrində imkanlarının genişləndirilməsinə olan həqiqi marağımızın sübutudur. Keyfiyyətli təhsil, praktiki təcrübə və müvafiq texnologiyalarla tanışlıq təmin etməklə, bu mühüm sahələrdə qadınların peşəkar inkişafını və sahibkar kimi uğurlarını təşviq etməyə çalışırıq. Bu təşəbbüs Elm, Texnologiya, Mühəndislik və Riyaziyyat sahələrində müxtəlifliyi və mükəmməlliyi təşviq etmək öhdəliyimizlə uzlaşır.

# İdarəetmə

# İdarəetmə

Azercell olaraq, əsas etika prinsiplərinə tam riayət etməklə və etibarlı idarəetmə mexanizmlərini dəstəkləməklə biznesi maksimum vicdanla idarə etməyə çalışırıq. Biz əminik ki, effektiv idarəetmə olmadan bir şirkət olaraq arzuladığımız dayanıqlılıq səviyyəsinə çatmaq mümkün deyil. Hesabat ili ərzində səmərəli idarəetmə öhdəliyimizi tam əks etdirən şirkətimizin Məqsədləri, Dəyərləri və Davranış nümunələrini açıqladıq.

Korporativ idarəetməmiz daxili və xarici maraqlı tərəflərimizlə qarşılıqlı etimadın artırılması prinsipinə əsaslanır. Etimad və dürüstlük mövzuları əhəmiyyətliliyin qiymətləndirilməsi prosesində maraqlı tərəflərimiz tərəfindən tez-tez qeyd edilir və Azercell-in dəyərlərinə daxildir. Bunun üçün, öhdəlik və hərəkətlərimizə görə tam məsuliyyət daşıyırıq, dürüstlük və ardıcıllığı inkişaf etdiririk və hər zaman işimizin həm ictimai, həm də özəl sahələrində ən yüksək etik standartlara riayət etməyi seçirik.

# Korporativ idarəetmə

## Direktorlar Şurası

Direktorlar Şurası Azercell-in uzunmüddətli uğurunun təmin olunması, strateji istiqamətlərinin müəyyənləşdirilməsi, korporativ siyasətlərin formalaşdırılması və Şirkət rəhbərliyinə müstəqil nəzarətin həyata keçirilməsindən məsuldur. Direktorlar Şurasının işini, korporativ idarəetməmizi gücləndirən Davranış və Biznes Etikası Məcəlləsi, şirkət nizamnamələri və siyasətləri tənzimləyir. Şəkil 21-də göstərilən 9 korporativ idarəetmə prinsipini müəyyən etdik. Bu prinsiplərin vicdanlı tətbiqi sayəsində Direktorlar Şurası Azercell-in fəaliyyətinin ən yüksək dürüstlük standartlarına uyğun olmasını təmin edir, məsuliyyətli və etik biznes təcrübələri ilə səciyyələnən korporativ mühitin yaradılmasına kömək edir.

## Azercell-in korporativ idarəetmə prinsipləri

- Şəffaflıq
- Qanunvericiliyə uyğunluq
- Hesabatlılıq
- Məsuliyyət
- Risklərin idarə edilməsi
- Strateji liderlik
- KSM tələblərinə uyğunluq
- Ədalət
- Etik davranış

## Şirkət rəhbərliyi

Şirkətimizin rəhbərliyi Prezidentimiz Zərinə Zeynalovanın rəhbərlik etdiyi vahid idarəetmə strukturudur. Bununla yanaşı, üst rəhbərlik (top-menecment) təşkilatın fəaliyyətinin müxtəlif aspektlərinin idarə edilməsində əsas rol oynayır. Azercell-in üst rəhbərlik komandası Maliyyə üzrə Baş Direktor, Hüquq, Etika və Komplayens üzrə Baş Direktor, Data üzrə Baş direktor və Satış üzrə Baş Direktordan ibarətdir.

C-suite (üst rəhbərlik) komandası  çox sayda məsələlərə nəzarət edən və yüksək səviyyəli qərarların qəbulunda top-menecment komandasına kömək edən məşvərətçi Forumlar tərəfindən dəstəklənir. Bu qurumlara Etika və Komplayens, Əməkdaşlar və Mədəniyyət, Qərar-verici (Decision) və Risk Forumları daxildir.

Bu forumların məsuliyyəti, vəzifələri və səlahiyyətləri onların ayrı-ayrı Nizamnamələri və müvafiq siyasətləri ilə tənzimlənir. Bu tənzimləyici sənədlər hər Forumun fəaliyyət göstərdiyi parametrləri müəyyən edən normativ baza rolunu oynayır. Bu nizamnamə və siyasətlərə riayət etməklə, Azercell təşkilat daxilində effektiv qərar qəbulu və hesabatlılığı təşviq edən strukturlaşdırılmış və şəffaf idarəetmə modelini təmin edir.

## Azercell-in təşkilati strukturu



# Forumların məsuliyyət və vəzifələri

## Qərar-verici Forum

**Məsuliyyət:** Şirkətin əhəmiyyətli investisiya və digər məsələlərini nəzərdən keçirir və strateji qərar qəbul etməyə dəstək göstərir.

**Vəzifələr:** Əsas təşəbbüslər, investisiyalar və siyasət dəyişikliklərini nəzərdən keçirir və təsdiqləyir.

## Etika və Komplayens Forumu

**Məsuliyyət:** Etika prinsiplərinə riayət edilməsini və qanunvericilik və normativ tələblərə uyğunluğu təmin edir.

**Vəzifələr:** Etik davranışı təşviq etmək üçün siyasətlər işləyib hazırlayır və ona nəzarət edir, komplayens təşəbbüslərini idarə edir və mümkün etik dilemmaları həll edir.

## Əməkdaşlar və Mədəniyyət Forumu

**Məsuliyyət:** Müsbət təşkilati mədəniyyət formalaşdırır, insan resursları ilə bağlı məsələləri həll edir və əməkdaşların iştirakçılığını gücləndirir.

**Vəzifələr:** İR siyasətini işləyib hazırlayır, istedadların idarə olunmasına nəzarət edir, müxtəliflik və inklüzivlik təşəbbüslərini təbliğ edir.

## Risk Forumu

**Məsuliyyət:** Təşkilatın məqsədlərinə təsir edə biləcək mümkün riskləri müəyyənləşdirir, qiymətləndirir və idarə edir.

**Vəzifələr:** Risklərin idarə edilməsi siyasətini formalaşdırır, risklərin qiymətləndirilməsini aparır və müəyyən edilmiş riskləri azaltmaq üçün strategiyalar işləyib hazırlayır.

## Dayanıqlılığın idarə edilməsi

Hesabat dövründə biz hərtərəfli ESG strategiyasını tətbiq etməklə korporativ məsuliyyətə sadiqliyimiz istiqamətində əhəmiyyətli addım atdıq. Bu strateji təşəbbüs "Bağlantını asanlaşdırmaq və bütün insanların həyat imkanlarını genişləndirmək" məqsədimizə uyğun olaraq irəli sürülmüşdür. ESG mülahizələrinin əsas əhəmiyyətini nəzərə alaraq, dayanıqlılıq prinsiplərinin fəaliyyətimizin bütün aspektlərinə qüsursuz şəkildə inteqrasiyasını və uzunmüddətli korporativ strategiyanı təmin etdik.

Şirkət prezidentinin birbaşa rəhbərliyi altında ESG strategiyası xüsusi rəhbər komitədən (steering committee) strukturlaşdırılmış dəstək aldı. Əsas biznes funksiyaları təmsil edən daimi üst səviyyə rəhbər üzvlərdən ibarət olan bu komitəyə yeni qəbul edilmiş ESG strategiyasının həyata keçirilməsində əsas rol həvalə edilmişdir. Eyni zamanda, bu komitəni biznes vahidləri səviyyəsində işləyən biznes vahidlərinin rəhbərləri dəstəkləyir. Bu rəhbərlər, rəhbər komitə (steering committee) və həmkarları ilə sıx əməkdaşlıq edərək müvafiq biznes vahidləri daxilində ESG təşəbbüslərini təşviq etməkdən məsuldurlar.

## VM Etika və Komplayens

Azercell olaraq, biz qeyd-şərtsiz etik işgüzar davranışın ən yüksək standartlarına riayət etməyə çalışırıq, rüşvətxorluq və ya korrupsiyanın istənilən formasına sıfır dözümlülük nümayiş etdiririk. Bu öhdəliyi yerinə yetirərkən Etika və Komplayens Forumumuz, təşkilat daxilində etika və komplayens mülahizələrinin diqqətlə izlənilməsi və idarə edilməsində əsas rol oynayır.

Etika və Komplayens Forumu olduqca effektiv etika və komplayens proqramının işlənib hazırlanması və tətbiqi ilə məşğul olan ixtisaslaşmış orqan kimi fəaliyyət göstərir. Bu proqram, hüquqi və etik sərhədlərin sadəcə müşahidə edilmədiyi, həm də ciddi şəkildə tətbiq olunduğu bir korporativ mühit yaratmaqla mümkün etika problemlərini qabaqcadan görmək, aradan qaldırmaq və azaltmaq üçün diqqətlə hazırlanmışdır.

Məqsədimiz təkcə yerli qaydalara riayət etmək və beynəlxalq standartlara cavab vermək deyil, həm də fəaliyyətin bütün səviyyələrində məsuliyyət və hesabatlılıq mədəniyyətini aşılayaraq onları aşmaqdır.

Bu öhdəliyə sadiqlik rəhbərlərimizi və əməkdaşlarımızı gündəlik fəaliyyətlərində və qərar qəbul proseslərinin hər mərhələsində istiqamətləndirən çoxsaylı korporativ siyasət və təlimatlarla dəstəklənir.

Etika və komplayensə yanaşmamız, əməkdaşlarımız üçün istiqamətləndirici rolunu oynayan Davranış və Biznes Etikası siyasətimizə əsaslanır. Bu siyasət, fırıldaqçılıq, maraqların toqquşması, rüşvət və korrupsiya, iş yerindəki standartlar və əqli mülkiyyətin qorunması kimi geniş etik biznes məsələlərinə dair əsas dəyərlərimizi və mövqeyimizi izah etmək üçün diqqətlə hazırlanmışdır. Bu siyasətin əməkdaşlarımız üçün əlçatanlığı, əhəmiyyəti və praktikliyini təmin etmək üçün xeyli səy göstərmişik. Prinsiplərimizi təqdim etməklə yanaşı, bu siyasət "Nə etməli və nə etməməli" şəklində əlavə məlumat və tez-tez verilən suallara cavab verir ki, bu da onun başa düşülməsini və fəaliyyətdə tətbiqini asanlaşdırır.

# Etik davranışı tənzimləyən Azercell sənədləri

| | | |
|---|---|---|
| Davranış və Biznes Etikası Məcəlləsi | Maraqların toqquşmasına dair Təlimat | Hədiyyə, Qonaqpərvərlik və Əyləncə haqqında Siyasət |
| Korporativ Rüşvətxorluq və Korrupsiya əleyhinə Təlimat | Maliyyə və qeyri-maliyyə nəzarəti | Pozuntular barədə məlumatvermə (Speak-Up and Whistleblowing) |
| Daxili araşdırmalara dair Təlimat | Qisasalma əleyhinə Təlimat | Etika və Komplayens Forumu haqqında Təlimat |

## Etika səfirləri

Biznesimizin səy göstərdiyi mədəniyyətin formalaşdırılmasında Etika və Komplayens Forumumuzu dəstəkləmək üçün "Etika səfirləri" mövzusunda unikal korporativ konsepsiya hazırlamışıq. Biznesimizdə müxtəlif qruplardan olan həmkarlarımızdan ibarət bu səfirlər əsas vəzifələri ilə yanaşı mühüm rol oynayırlar.



Etika səfirlərinə aşağıdakı vəzifələri yerinə yetirmək tapşırılıb:

- Şirkət daxilində etik məsələlərin müzakirəsini təşviq etmək, işdə həm rəsmi, həm də qeyri-rəsmi qarşılıqlı əlaqələrdə etika mülahizələrini nəzərə almaq;
- Mümkün olduqda etik məsələləri həm rəsmi, həm də qeyri-rəsmi görüşlərin gündəliyinə daxil etmək;
- Etika və komplayens barədə məlumatlılığı artırmaq üçün məsləhət, təşviq və təsir imkanlarından istifadə etməklə şirkət daxilində və onun müvafiq qruplarında Etika səfiri kimi xidmət etmək;
- Etik davranış üçün iş arqumentlərini ardıcıl olaraq formalaşdırmaq və yaymaq, etik davranışın uzunmüddətli korporativ müvəffəqiyyətə müsbət təsirini vurğulamaq;
- Etika və Komplayens bölümü ilə onun müvafiq funksional sahələri arasında birləşdirici halqa kimi çıxış edərək, effektiv kommunikasiya və əməkdaşlığı asanlaşdırmaq üçün qüsursuz əlaqə yaratmaq.

## Azercell-in Pozuntular barədə məlumatvermə (Speak-Up and Whistleblowing) sistemi

Azercell əməkdaşlarımız və digər maraqlı tərəflər arasında qanun pozuntularını bildirmək üçün təhlükəsiz metodu müəyyənləşdirməyə və tətbiq etməyə çalışır. Xüsusi "Speak-Up" sistemimiz daxili və xarici maraqlı tərəflərə iddia edilən problemləri bildirmək üçün məxfi və təhlükəsiz vasitələr təqdim etmək məqsədilə yaradılmışdır. Bu sistemin əlçatanlığını artırmaq üçün xüsusi olaraq bu məqsəd üçün hazırlanmış e-poçt və telefon nömrəsi vebsaytımızda göstərilib və Davranış və Biznes Etikası Məcəlləmizə uyğun olaraq açıq şəkildə əməkdaşlarımızın və biznes tərəfdaşlarımızın diqqətinə çatdırılır.

Məlumatvermə sisteminin monitorinqindən məsul olan işçilər hərtərəfli təlim keçir və məxfilik prinsiplərinə riayət edirlər. Bu, təşkilat daxilində etimad və hesabatlılıq mədəniyyətinin formalaşmasına töhfə verməklə hesabatvermə prosesinin maksimum mülahizə və dürüstlüklə həyata keçirilməsini təmin edir.

# Risklərin idarə edilməsi

Sürətlənən iqlim dəyişikliyi, siyasi iğtişaşlar və inkişaf edən tənzimləmə mühiti ilə səciyyələnən daim dəyişən qlobal kontekstdə fəaliyyət göstərdiyimizdən, əməliyyatlarımız daim uzunmüddətli həyat qabiliyyətinə əhəmiyyətli təhlükələr yaradan gözlənilməz problemlər və pozulmalar riski ilə üzləşir. Proaktiv risklərin azaldılması strategiyalarının müstəsna əhəmiyyətini nəzərə alaraq, davamlılığı artırmağa, biznes etikasını tətbiq etməyə və korporativ uğurla ətraf mühitə qayğı arasında incə tarazlığı qorumağa çalışırıq. Bu prinsiplərə sadiq qalaraq, dayanıqlı və məsuliyyətli təcrübələrə sadiqliyimizi qorumaqla müasir biznes mühitinin çətinliklərini araşdırmağa çalışırıq.

Biznesimizin dayanıqlılığını təmin etmək üçün, risk menecment sistemimizi qiymətləndirmək məqsədilə Azercell ixtisaslaşmış xidmət təminatçıları tərəfindən kompleks risk menecment qiymətləndirməsindən keçib. Qiymətləndirmənin nəticələrinə əsasən, biz ən məqbul risk menecment sistemini müəyyən etmişik və hazırda onun korporativ strukturumuza tam inteqrasiyası üzərində işləyirik.

İnteqrasiyanın ilk addımı, qarşısında şirkətin fəaliyyətini sistematik olaraq qiymətləndirmək vəzifəsi qoyulmuş xüsusi Risk Forumunun yaradılması idi. Qlobal tendensiyalardan və qabaqcıl beynəlxalq təcrübələrdən hər zaman xəbərdar olmaq üçün hazırda risk menecment sistemimizi beynəlxalq standartlara və yerli normativ sənədlərə tam uyğun şəkildə yenidən qururuq.



# VM Kibertəhlükəsizlik və Məlumatların məxfiliyi

Sürətli texnoloji innovasiyaların və tərəqqinin dinamik qlobal arenasında fəaliyyət göstərməklə, kiberhücumlar və məlumatların qorunması ilə bağlı pozuntularının artan təhlükəsini dərk edirik. Müştərilərimizin məlumatlarını mühafizə etmək və şəbəkələrimizin davamlılığını təmin etmək öhdəliyimiz olduğundan, Azercell-də müvafiq Təhlükəsizlik Departamenti fəaliyyət göstərir.

Bu ixtisaslaşmış departament informasiya təhlükəsizliyinin idarə edilməsinə yanaşmamızı qabaqcıl təcrübələrin ön sıralarında saxlamaq üçün əlindən gələni edir. Yaranan təhdidlərə qarşı effektiv mübarizə aparmaq üçün təhlükəsizlik tədbirlərimizə davamlı inkişaf və investisiya yatırımı ehtiyacını dərk edirik. Təşəbbüskar və adaptiv qalmaqla, müdafiəmizi gücləndirməyi və müştərilərimizin və fəaliyyət göstərdiyimiz icmaların bizə olan etimadını saxlamağı hədəfləyirik.

## İnformasiya Təhlükəsizliyi İdarəetmə Sistemi (İTİS)

2019-cu ildə informasiya təhlükəsizliyi idarəetmə sistemimiz üçün ISO/IEC 27001:2013 sertifikatını aldıq və bu, güclü təhlükəsizlik təcrübələrini tətbiq etmək öhdəliyimizdə mühüm mərhələ oldu. De-fakto Beynəlxalq İnformasiya Təhlükəsizliyi Standartı kimi tanınan bu sertifikat hər 3 ildən bir hərtərəfli baxış və təkrar sertifikatlaşdırmadan keçirilir.

Sistemli və proaktiv yanaşmaya sadiqliyimizi bir daha təsdiqləmək üçün, informasiya təhlükəsizliyi ilə bağlı bütün siyasət və prosedurlar hər il yenidən nəzərdən keçirilərək yenilənir. 2022 və 2023-cü illərdə proqramımızın bir neçə yenilənməsinə böyük investisiyalar yatırdıq:

- İnformasiya təhlükəsizliyi risklərinin qiymətləndirilməsi metodologiyamızı bərpa etdik və İT və İnformasiya təhlükəsizliyi ilə bağlı riskləri Jira platformasına daxil etdik;
- Təşkilat tərəfindən saxlanılan məlumatların məxfiliyini və ya əhəmiyyətini müəyyənləşdirməyimizə və müvafiq nəzarət mexanizmləri tətbiq etməyimizə imkan verən yeni Məlumat Təsnifat Aləti tətbiq etdik;
- İnformasiya texnologiyaları, şəbəkə texnologiyaları və Təhlükəsizlik departamentinin aktivləri haqqında məlumat toplamaq üçün rəqəmsal aktivlər kataloqu yaratdıq;
- Bütün əməkdaşların giriş hüquqlarını yoxladıq və Jira proqram platformamızda Giriş rolu matrisi yaratdıq. Bu matris tətbiqlərə və rollara giriş qruplarını idarə etmək və giriş təminetmə prosesini optimallaşdırmaq üçün hazırlanmışdır;
- Azercell-in veb tətbiqlərini kiberhücumlardan qorumaq üçün Veb tətbiq fayrvolunu (Firewall) inteqrasiya etdik.

Bu təkmilləşdirmələr davamlı inkişafı təmin etmək və mümkün təhdidlərin və sənaye standartlarının daim dəyişən mənzərəsinə uyğun olaraq informasiya təhlükəsizliyinə bu sahədə ən yaxşı yanaşmamızı qorumaq üçün tətbiq edilmişdir. Bu daimi öhdəlik, məlumat aktivlərimizin qorunması və bütövlüyü üçün sarsılmaz öhdəliyimizi əks etdirir.

İnsidentlərə cavab metodologiyamızı izləmək üçün, əməkdaşlarımız müntəzəm olaraq simulyasiya testləri, o cümlədən fişinq, biznes davamlılığı testi və sosial mühəndislik testi aparırlar ki, bu da bizə mümkün zəif cəhətləri müəyyən etməyə və yanaşmamızı daim sınaqdan keçirib təkmilləşdirməyə imkan verir.

## Kommunikasiya və Daxili İştirakçılıq

İnformasiya təhlükəsizliyi idarəetmə sistemimizin əsas komponenti bütün əməkdaşlar və tərəfdaşlarla effektiv kommunikasiyadır və bu kommunikasiya müştəri məlumatlarının mühafizəsi və kibertəhlükəsizlik standartlarına riayət edilməsinə görə ümumi məsuliyyətimizi vurğulayır. Bu məqsədlə 21-25 noyabr 2022-ci il tarixlərində Azercell-in ilk "Təhlükəsizlik Həftəsi"ni təşkil etdik. Bu təşəbbüs informasiya təhlükəsizliyi, kibertəhlükəsizlik və biznesin davamlılığının müxtəlif aspektlərini əhatə edən bir sıra vebinar sessiyaları vasitəsilə əməkdaşların məlumatlılığı və potensialını artırmaq məqsədi daşıyırdı. Birinci layihənin uğuruna əsaslanaraq, İkinci "Təhlükəsizlik Həftəsi" 27 noyabr - 1 dekabr 2023-cü il tarixlərində baş tutdu.

Bu səylərə uyğun olaraq, biz əməkdaşlarımıza əlçatan və davamlı təhsil resursları təmin etməklə, informasiya təhlükəsizliyi modullarının tam toplusunu özündə birləşdirən e-təlim platformasını işə saldıq.

Qeyd edək ki, 2023-cü ilin noyabr ayında Təhlükəsizlik Departamentimiz "Critical Infrastructure Defense Challenge 2023" (CIDC-2023) tədbirində iştirak edib. Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən birgə təşkil edilən bu unikal müsabiqədə təkrarlanan kiberhücumlar vasitəsilə virtual müharibə simulyasiya edilib. Yüksək peşəkarlıq və fədakarlıq nümayiş etdirən Azercell-in "Cybercell" komandası qarşıya qoyulan bütün tapşırıqları uğurla yerinə yetirərək, bu çətin müsabiqənin seçilən qaliblərindən biri oldu, komandamızın əsas üzvlərindən biri isə fərdi kateqoriyada 1-ci yerə layiq görüldü. Bu nailiyyətlər kibertəhlükəsizlik və məlumatların mühafizəsi sahəsində mükəmməllik və səriştə öhdəliyimizi vurğulayır.




## Üçüncü şəxslərin iştirakçılığı

Bütün dəyər zəncirimiz boyunca ardıcıl və ciddi təhlükəsizlik standartlarını dəstəkləmək üçün, təchizatçılarımızdan ciddi təhlükəsizlik təcrübələrinə riayət etmələrini tələb edirik. Bu gözləntilər Təchizatçıların Təhlükəsizlik Direktivləri çərçivəsində aydın şəkildə ifadə edilir və təchizatçılarımızın diqqətinə çatdırılır. Təchizatçılarımızın bu direktivləri tətbiq etməsini təmin etməklə, dəyər zəncirimiz boyunca yüksək səviyyədə müdafiə qurmağı və saxlamağı hədəfləyirik. Bu yanaşma etibarlı təhlükəsizlik tədbirlərini qorumaq öhdəliyinə sadiqliyimizi və məxfi məlumatların mühafizəsi və əməliyyatlarımızın bütövlüyünün qorunmasına görə kollektiv məsuliyyəti vurğulayır.

# Təchizat Zənciri üzrə Məsuliyyət

Azercell təchizatçıların dəyər zəncirimizdə oynadığı mühüm rolu tanıyır ki, bu da müştərilərimizə yüksək keyfiyyətli xidmətlər göstərməyimizə imkan verir. Potensial təchizatçıların seçilməsi "Təchizatçı seçimi və Satınalmaların etik prinsipləri"ndə göstərilən normalara uyğun olaraq həyata keçirilir. Biznesimiz üçün ən yüksək dəyərlərə sadiq qalmaqla, bu prinsipləri təkcə şirkət daxilində tətbiq etmirik, həm də təchizatçı tərəfdaşlarımızdan həmin standartlara riayət etmələrini gözləyirik.

Təchizatçı və podratçılarımızın qarşısında insan hüquqları, iş şəraiti, ətraf mühitin dayanıqlılığı və korrupsiyaya qarşı mübarizə ilə bağlı ümumi qəbul edilmiş standartlara riayət etmələri üçün dəqiq tələblər qoymuşuq. Azercell ilə əməkdaşlıq edən üçüncü şəxslərə aid Davranış Məcəlləsində göstərilən prinsiplərə riayət olunması bizim müqavilə şərtlərimizin ayrılmaz hissəsini təşkil edən mühüm tələbdir.

Məsuliyyətli təchizatçı seçimi öhdəliyimizi vurğulayaraq, əsasən yerli təchizat bazasını dəstəkləyirik və təchizatçılarımızın 80%-dən çoxu Azərbaycandadır. Yerli təchizata yönəlməyimiz təkcə ESG mövzularında əlaqələrin idarə olunması, qiymətləndirmə və iştirakçılıqda səmərəliliyi təşviq etmir, həm də yerli iqtisadiyyatımıza dəstəyə töhfə verir. Bu yanaşma, dəyər zəncirimiz boyunca dayanıqlı və etik biznes təcrübələri ilə bağlı daha geniş öhdəliyimizlə uzlaşır.






# Təchizatçının ABC öhdəliyi və Auditi

Standartlarımızın yerinə yetirilməsini təmin etmək üçün, Azercell mümkün risklər əsasında müəyyən edilmiş strateji təchizatçılara yönəlmiş daxili təchizatçı audit proqramı həyata keçirir. Hərtərəfli audit protokolumuz, biznes prioritetlərimizə uyğun olaraq müxtəlif risk sahələrinin qiymətləndirilməsi nəzərə alınmaqla hazırlanmışdır.

## Təchizatçının Davranış Məcəlləsinin prioritet sahələri

- İş saatları, Əməkhaqqı, Güzəştlər və Kompensasiyalar, Təlim kimi sahələrə xüsusi diqqət yetirməklə Əmək hüquqları
- Korrupsiyaya qarşı mübarizənin idarə olunması, Qanunsuz ödənişlər, Hədiyyələr kimi sahələrə diqqət yetirməklə Korrupsiyaya qarşı mübarizə
- Uşaq əməyi, Məcburi əmək, Ayrı-seçkilik, Birləşmək azadlığı, Şikayət mexanizmləri kimi sahələrə diqqət yetirməklə İnsan hüquqları
- Ekoloji menecment, Ətraf mühitin çirklənməsi, Ekoloji risklər, Enerji, Su, Tullantılar, Nəqliyyat kimi sahələrə diqqət yetirməklə Ətraf mühit

Azercell ilə əməkdaşlıq edən üçüncü şəxslərə aid Davranış Məcəlləsinin pozulması “uyğunsuzluqlar” kimi təsnif edilir və audit zamanı ciddiyyətinə görə bölünür. Auditin nəticələri Təchizat Zəncirinin İdarə Edilməsi (SCM), İnsan Kapitalının İdarə Edilməsi (HCM), Şəbəkə Texnologiyaları, Sağlamlıq, Əməyin təhlükəsizliyi və Ətraf mühit (SƏTƏM), Hüquq, Etika və Komplayens Departamenti kimi müvafiq biznes struktur bölmələri ilə birlikdə Etika və Komplayens Forumu tərəfindən nəzərdən keçirilir.

Təchizatçılarla əməkdaşlıq əlaqələrinin qurulması prioritet olsa da, tələb olunan müddətdə lazımi qaydada həll olunmayan və sonrakı audit zamanı davam etdirilən “kritik uyğunsuzluqlar” kimi müəyyən edilmiş ciddi risklər halında, müqavilə, petisiya qərarı üçün Etika və Komplayens Forumuna verilir. Bu yanaşma etik standartlara riayət etmək öhdəliyimizi vurğulayır və təchizatçıların dəyər və prinsiplərimizə uyğun olmasını təmin edir.

# Yekun qeydlər

# İrəliyə baxış

Bu hesabatda Azercell-in 2023-cü il üçün dayanıqlılıq təşəbbüslərinə ümumi baxış təqdim olunur ki, bu da ESG prinsiplərinin fəaliyyətimizə tammiqyaslı inteqrasiyasına sadiqliyimizi nümayiş etdirir. Dayanıqlılıq sahəsində lider olmaq potensialımızı qəbul edərək, dayanıqlılıq strategiyamızı 2024-cü ilin gündəliyinə daxil etməyi hədəfləyirik.

Dayanıqlı inkişafa can ataraq, tükənən təbii ehtiyatlardan asılılığı azaltmaq üçün dairəvi İqtisadiyyat metodlarının tətbiqi imkanlarını araşdırırıq. Buraya daha səmərəli istifadə və təkrar emal yolu ilə batareyaların istismar müddətini uzatmaq səyləri daxildir. Bundan əlavə, daha etibarlı Tullantı idarəetmə sisteminin yaradılması məqsədilə xidmət təminatçıları ilə danışıqlar aparılır.

Azercell park edilmiş elektrik nəqliyyat vasitələri üçün enerji doldurma məntəqələri ilə təmin etmək, əlçatanlığı artırmaq üçün terminallar quraşdırmaq və işçiləri daha “yaşıl” nəqliyyata keçməyə təşviq etməkdə lider olmağa çalışır. Bərpa olunan enerji mənbələri gələcək inkişafın prioritet istiqamətidir və yaxın illərdə Azercell daha çox sahədə onların istifadəsini genişləndirməyi planlaşdırır. Eyni zamanda, suya qənaət digər prioritet məsələdir və biz avtomobillərin yuyulması üçün istifadə olunan suyun 95%-ə qədərini geri qaytarmaqla suyun filtrasiya sistemini tətbiq etməyi planlaşdırırıq.

Əməkdaşlarımızın rifahına diqqət yetirərək, “SAP SuccessFactors” platforması kimi rəqəmsallaşdırma təşəbbüslərini 2025-ci ilə qədər tam inteqrasiya etməyi hədəfləyirik. Bu addım əməkdaşlarımıza hibrid iş rejimi üçün daha rahat mühit təklif etmək və onlara bütün İR xidmətlərinə rəqəmsal çıxış imkanı vermək məqsədi daşıyır.

Bu planları həyata keçirən Azercell ətraf mühitə, əməkdaşlarımıza və fəaliyyət göstərdiyimiz icmalara müsbət təsir göstərməyə hazırdır. Biz gələcəyə nikbinliklə baxırıq və bazarda dayanıqlılıq sahəsində lider olmaq öhdəliyimizə sadiq qalırıq.

# Məlumat cədvəlləri

# Əlavə

Aşağıdakı məlumatlar əməliyyat performansımızı anlatmaq üçün toplanmışdır. Məlumatların toplanması prosesində GRI standartları, SASB standartları və Maraqlı Tərəflərin Kapitalizmi Metrikləri (Stakeholder Capitalism Metrics) daxil olmaqla bir sıra hesabat qaydaları rəhbər tutulmuşdur. Bununla belə, bu cədvəllər müvafiq açıqlamalar kimi qəbul edilməməlidir. Müvafiq hesabat standartlarına uyğun açıqlamaların verilməsi növbəti hesabat dövrləri üçün nəzərdə tutulub.

## Ətraf mühit

| | Standart | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|
| **Enerji** | | | | |
| Elektrik istehlakı, kVt | GRI 302-1 | 7.052.125 | 6.964.136 | 6.951.250 |
| Ümumi yanacaq istehlakı, o cümlədən: | GRI 302-1 | 336.426 | 349.004 | 331.850 |
| Dizel, litr | GRI 302-1 | 27.732 | 26.222 | 15.422 |
| Benzin, litr | GRI 302-1 | 308.694 | 322.782 | 316.428 |
| Ümumi təbii qaz istehlakı, m3 | GRI 302-1 | 81.799 | 82.750 | 65.638 |
| **Su** | | | | |
| Ümumi su çəkimi, m3 | GRI 303-4 | 19.870 | 23.663 | 17.181 |
| Su istehlakı (işçi başına düşən**), m3 | GRI 303-4 | 25,74 | 27,94 | 18,47 |

# Ətraf mühit

| | Standart | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|
| **Tullantılar** | | | | |
| Yaranan tullantıların metrik tonlarda ümumi çəkisi və tullantıların tərkibinə görə bu ümumi miqdarın bölgüsü, m3 | GRI 306-3 | 3.136,304 | 3.412 | 3.164 |
| Təhlükəli, m3 | GRI 306-3 | 0 | 15 | 2,6 |
| Təhlükəli olmayan, m3 | GRI 306-3 | 3.136 | 3.397 | 3.162 |
| **İstixana qazı emissiyaları** | | | | |
| Ümumi birbaşa İXQ emissiyaları (Scope 1) metrik ton, ton | GRI 305-1 | 738 | 766 | 733 |
| Scope 2 çərçivəsində işçi başına düşən İXQ emissiyaları, ton | GRI 305-1 | 4,13 | 3,72 | 3,38 |

***Ekoloji ƏPG-lərə dair məlumatlara yalnız inzibati obyektlər daxildir***

# Sosial

## Məşğulluq, Təlim və İnkişaf, Müxtəliflik və İnklüzivlik

| | Standart | 2021 | | 2022 | | 2023 | |
|---|---|---|---|---|---|---|---|
| | | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| **Əməkdaşlar üzrə ümumi statistika** | | | | | | | |
| Daimi işçilərin ümumi sayı, cinsiyyət və kateqoriya üzrə bölgü | GRI 2-7 | 469 | 303 | 526 | 321 | 567 | 348 |
| *Top-menecment* | GRI 2-7 | 75 | 37 | 86 | 37 | 92 | 41 |
| *Mütəxəssis* | GRI 2-7 | 291 | 135 | 342 | 158 | 378 | 184 |
| *Əməliyyatçılar* | GRI 2-7 | 103 | 131 | 98 | 126 | 97 | 123 |
| Tam ştatlı işçilərin ümumi sayı, cinsiyyət üzrə bölgü | GRI 2-7 | 462 | 297 | 520 | 315 | 564 | 339 |
| Yarımştat işçilərin ümumi sayı, cinsiyyət üzrə bölgü | GRI 2-7 | 7 | 6 | 6 | 6 | 3 | 9 |
| Yerli minimum əmək haqqı ilə müqayisədə standart giriş səviyyəli əməkhaqqı nisbəti, cinsiyyət üzrə bölgü | GRI 2-7 | 3.5:1 | 3.5:1 | 3.2:1 | 3.2:1 | 3.3:1 | 3.3:1 |
| Qadınlar və kişilərin baza əməkhaqqı nisbəti, o cümlədən | GRI 202-1 | 1:1 | | 1:1 | | 1:1 | |
| *Top-menecment* | GRI 202-1 | 1:1 | | 1:1 | | 1:1 | |
| *Mütəxəssis* | GRI 202-1 | 1:1 | | 1:1 | | 1:1 | |
| *Digər* | GRI 202-1 | 1:1 | | 1:1 | | 1:1 | |

# Məşğulluq, Təlim və İnkişaf, Müxtəliflik və İnklüzivlik

| | Standart | 2021 | | 2022 | | 2023 | |
|---|---|---|---|---|---|---|---|
| | | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| **Valideynlik məzuniyyəti** | | | | | | | |
| Valideynlik məzuniyyəti götürmək hüququ olan əməkdaşların ümumi sayı, cinsiyyət üzrə bölgü | GRI 401-3 | all | all | all | all | all | all |
| Valideynlik məzuniyyəti götürmüş əməkdaşların ümumi sayı, cinsiyyət üzrə bölgü | GRI 401-3 | 10 | 12 | 23 | 16 | 39 | 21 |
| Valideyn məzuniyyəti bitdikdən sonra işə qayıdan əməkdaşların ümumi sayı, cinsiyyət üzrə bölgü | GRI 401-3 | 10 | 14 | 23 | 12 | 39 | 13 |
| Valideyn məzuniyyətindən sonra işə qayıtmalı olan əməkdaşların ümumi sayı, cinsiyyət üzrə bölgü | GRI 401-3 | 10 | 14 | 23 | 12 | 39 | 13 |

# Məşğulluq, Təlim və İnkişaf, Müxtəliflik və İnklüzivlik

| | Standart | 2021 | | 2022 | | 2023 | |
|---|---|---|---|---|---|---|---|
| | | Kişi | Qadın | Kişi | Qadın | Kişi | Qadın |
| **Yeni işçilər, Dövriyyə və Müxtəliflik, cinsiyyət üzrə bölgü** | | | | | | | |
| İşə götürülən yeni əməkdaşların ümumi sayı | GRI 401-1 | 64 | 26 | 100 | 37 | 97 | 44 |
| Əməkdaş dövriyyəsinin ümumi sayı | GRI 401-1 | 50 | 11 | 42 | 20 | 48 | 32 |
| Əməkdaş dövriyyəsinin səviyyəsi | GRI 401-1 | | | | | 8,47% | 9,20% |
| Əməkdaşlara keçilən təlim saatlarının ümumi sayı, kateqoriyalar üzrə bölgü | GRI 401-1 | 44,1 | | 37 | | 82,4 | |
| *Top-menecment* | GRI 401-1 | 13,1 | 11,2 | 8,5 | 14,6 | 24,1 | 23,06 |
| *Mütəxəssis* | GRI 401-1 | 11,1 | 8,7 | 7,4 | 6,5 | 17,5 | 17,7 |

# Əməyin mühafizəsi və təhlükəsizliyi

| | Standart | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|
| **SƏTƏM statistikası** | | | | |
| Ölüm halları, birbaşa işləyənlər | GRI 403-9 | 0 | 0 | 0 |
| Qeydə alınan xəsarətlər | GRI 403-9 | 0 | 0 | 0 |
| **SƏTƏM üzrə təlim** | | | | |
| SƏTƏM üzrə təlim keçmiş əməkdaşlar | GRI 403-5 | 149 | 152 | 121 |
| SƏTƏM üzrə təlim keçmiş əməkdaşların % | GRI 403-5 | 19% | 17% | 13% |
| Əməyin Mühafizəsi üzrə təlim saatları | GRI 403-5 | 45 | 46,25 | 30,25 |
| **SƏTƏM-ə investisiya** | | | | |
| Fərdi mühafizə vasitələrinə (FMV) yatırılan investisiyaların ümumi həcmi, AZN | GRI 401-1 | 21.000 | 21.000 | 30.000 |

# İcma

| | Standart | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|
| **İcma iştirakçılığı** | | | | |
| İcma investisiyalarının ümumi məbləği, AZN | | 868.703 | 13.610.443 | 30.748.679 |
| Mal və xidmətlər şəklində ianələr, AZN | | 2.508.540 | 1.420.000 | 1.031.000 |
| Korporativ təsir qiymətləndirmələri | | 1 | 1 | 1 |
| İnkişaf proqramları | | 3 | 4 | 7 |
| Yerli icmalar üçün əhəmiyyətli faktiki və potensial mənfi nəticələri olan əməliyyatlar | GRI 413-2 | YOXDUR | YOXDUR | YOXDUR |

# İdarəetmə

## Məlumat və Biznes Etikası

| | Standart | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|
| **Məlumatlarla bağlı pozuntular** | | | | |
| Müştəri gizliliyinin pozulması ilə bağlı alınan əsaslandırılmış şikayətlərin ümumi sayı, o cümlədən: | GRI -418-1 | 0 | 0 | 0 |
| Müəyyən edilmiş müştəri məlumatlarının sızması, oğurlanması və ya itirilməsinin ümumi sayı | GRI -418-1 | 0 | 0 | 0 |
| Məlumatı ikinci dərəcəli məqsədlər üçün istifadə olunan müştərilərin sayı | GRI -418-1 | 0 | 0 | 0 |
| Müştəri məxfiliyi ilə bağlı məhkəmə çəkişmələri nəticəsində yaranan pul itkilərinin ümumi məbləği, AZN | SASB TC-TL-220a TC - TL - 230a | 0 | 0 | 0 |
| Məlumatlarla bağlı pozuntuların ümumi sayı | | 0 | 0 | 0 |

# Məlumat və Biznes Etikası

| | Standart | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|
| **Məlumat idarəetmə təlimi** | | | | |
| Məlumat məxfiliyi üzrə təlim sessiyalarının sayı | | 22 | 40 | 32 |
| Təlim sessiyalarına sərf olunan saatların sayı | | 36,67 | 66,67 | 53,3 |
| İştirakçıların sayı | | 99 | 202 | 182 |
| **Korrupsiyaya qarşı mübarizə** | | | | |
| Təşkilatın Korrupsiyaya qarşı mübarizə siyasəti və prosedurları diqqətinə çatdırılan əməkdaşların ümumi sayı, kateqoriyalar üzrə bölgü | GRI 205-2 | 763 | 848 | 900 |
| *Top-menecment* | GRI 205-2 | 120 | 123 | 131 |
| *Mütəxəssis* | GRI 205-2 | 643 | 725 | 769 |
| *Digər* | GRI 205-2 | YOXDUR | YOXDUR | YOXDUR |

# Məlumat və Biznes Etikası

| | Standart | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|
| **Korrupsiyaya qarşı mübarizə** | | | | |
| Korrupsiyaya qarşı mübarizə üzrə təlim keçmiş əməkdaşların ümumi sayı, kateqoriyalar üzrə bölgü | | 285 | 875 | 997 |
| *Top-menecment* | | | 123 | 131 |
| *Mütəxəssis* | | 271 | 466 | 769 |
| *Digər* | | 14 | 286 | 97 |

# Satınalma

| | Standart | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|
| **Satınalma** | | | | |
| Ümumi satınalma büdcəsi, AZN | GRI 204-1 | 117.105.502 | 306.695.923 | 263.669.057 |
| Yerli təchizatçılara sərf edilmiş büdcə, % | GRI 204-1 | 73,4% | 43,6% | 60,0% |
| Təchizatçıların məkana görə payı, % | GRI 204-1 | 100% | 100% | 100% |
| Yerli təchizatçılar, % | GRI 204-1 | 83% | 85% | 83% |
| Xarici təchizatçılar, % | GRI 204-1 | 17% | 15% | 17% |

# Satınalma

| | Standart | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|
| **Satınalma** | | | | |
| Təchizatçıların ümumi sayı | GRI 204-1 | 355 | 343 | 392 |
| Yerli təchizatçılar | GRI 204-1 | 296 | 291 | 316 |
| Xarici təchizatçılar | GRI 204-1 | 59 | 52 | 76 |
| Ekoloji meyarlardan istifadə edilməklə seçilmiş yeni təchizatçıların % | GRI 308 | 20% | 25% | 26% |
| Ekoloji təsir baxımından qiymətləndirilən təchizatçıların sayı | GR 308 | n/a | 2(strateji vendorlar) | 2(strateji vendorlar) |
| Uşaq əməyinin istifadəsi ilə əlaqəli hallarla bağlı əhəmiyyətli risklə müəyyən edilmiş əməliyyatların və/və ya təchizatçıların sayı | GR 408 | aşkar edilməyib | aşkar edilməyib | aşkar edilməyib |
| Sosial meyarlardan istifadə edilməklə seçilmiş yeni təchizatçıların % | GR 408 | 20% | 25% | 26% |

# Əməliyyat

| | Standart | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|
| **Əməliyyat** | | | | |
| Rouminq əhatə dairəsi, operatorların sayı | | 396 | 399 | 409 |
| Beynəlxalq rouminq şəbəkəsi çıxış data trafiki, petabayt | | 0,10 | 0,21 | 0,22 |
| Beynəlxalq rouminq şəbəkəsi giriş data trafiki, petabayt | | 0,06 | 0,13 | 0,43 |
| Abunəçilərin ümumi sayı | | 5.095.780 | 5.277.049 | 5.497.981 |